# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 04 (3470) Cümə axşamı / 2-8 fevral 2023-cü il Qiyməti 40 qəpik


# İranın casus şəbəkələri

***Son günlər Azərbaycan ərazisində təxribatçı fəaliyyətlə məşğul olan İranın casus şəbəkəsinin üzvlərinin aşkarlanaraq həbs edilməsi istiqamətində Dövlət Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyi səviyyəsində ardıcıl əməliyyatlar həyata keçirilməkdədir. Daxili İşlər Nazirliyi (DİN) əməkdaşlarının keçirdikləri xüsusi əməliyyat tədbirləri nəticəsində Azərbaycanda "din pərdəsi" altında təxribat və pozuculuq əməllərini həyata keçirən 39 nəfər müəyyən edilərək saxlanılıb. Özlərini dindar kimi qələmə verən həmin şəxslər sosial şəbəkələr üzərindən İran lehinə təbliğatlar apararaq, ölkəmizdəki dini etiqad azadlığından sui-istifadə edərək Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün İran xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetiriblər.***




Onlar insanlar arasında məzhəb ayrı-seçkiliyi salmaq, qarşıdurma yaratmaq məqsədilə Azərbaycan vətəndaşlarının qatıldıqları dini mərasimlərdə və sosial şəbəkələrdə İrana aid atributlardan, eləcə də üzərində fars dilində müxtəlif yazılar olan qara bayraqlardan istifadə etməklə cəmiyyətdə çaşqınlıq yaradaraq topladıqları məlumatları tapşırıq aldıqları xüsusi xidmət orqanlarına ötürüblər. Bundan əlavə, İranın casusları Azərbaycan gəncliyinin məhv edilməsi istiqamətində ardıcıl fəaliyyət göstərirlər. Sirr deyil ki, ölkəmizə gətirilən narkotik vasitələrin əksəriyyətinin mənbəyi məhz molla rejiminin hökm sürdüyü cənub "qonşumuz"dur.

■ **Dünən, həmçinin iranlı narkobaronların ölkə daxilindəki havadarlarına qarşı əməliyyatlar keçirilib, 36 nəfər saxlanılıb, 114 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.** Məlumata görə, "Pünhan", "Baba","Peyman", "Araz" və digər şərti adları altında İrandan qaçaqmalçılıq yolu ilə ölkəmizə külli miqdarda narkotik vasitələr göndərən, sosial şəbəkələrdə gəncləri şirnikləndirici vədlərlə narkokuryerliyə cəlb edən mütəşəkkil cinayət dəstənin üzvləri saxlanılıblar. Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsi tərəfindən son 20 gündə paytaxt və bölgələrdə keçirilən silsilə əməliyyatlar zamanı qeyd edilən qanunsuz fəaliyyətlə məşğul olan ümumilikdə 36 nəfər saxlanılıb, qanunsuz dövriyyədən 114 kiloqram müxtəlif xassəli narkotik vasitə, psixotrop maddə, elektron tərəzilər və 3 min ədəd ekstazi və metadon həbi çıxarılıb. İranın Azərbaycan əleyhinə casus fəaliyyəti dünya mətbuatının da diqqətindədir. Bu məsələ ilə bağlı səsləndirilən rəqəmlər isə Tehranın ölkəmizdə qurmağa çalışdığı "casus hörümkək toru"nun nə dərəcədə geniş olduğunu gözlər önünə sərir.

■ **Türkiyənin "Diriliş Postası" qəzeti yazır ki, İran kəşfiyyatı ilahiyyat, siyasət, iqtisadiyyat, mədəniyyət, təhlükəsizlik, mülki və hərbi bürokratiya sahəsində Tehrana xidmət etməli olan, sayları 3500-ə çatan şiə xəbərçilərini Azərbaycana sızdırıb. Azərbaycan kəşfiyyatı 1997-2011-ci illər ərzində fəaliyyəti xüsusi proqram çərçivəsində həyata keçirilən agentləri müəyyən edib. Lakin 700 şiə xəbərçisi Azərbaycanı tərk edə bilib.**



1996-cı ildə İranda Azərbaycan masası adlı xüsusi bölmə yaradılıb. İlk addım kimi İran xüsusi xidmət orqanlarının "Şaziman-ı İttilaat" və İran İnqilabı Keşikçiləri Korpusunun əməkdaşlarından Azərbaycanın coğrafiyası, dili və mədəniyyəti üzrə xüsusi təlim keçmiş 4000 kəşfiyyatçı seçilib. Bu məlumat verənlərin hamısı Bakıya azərbaycanlı qadınlarla evlənərək daxil olublar. Azərbaycan qanunlarına əsasən, İran agentlərinin vəzifə təlimatları da dəyişdirilib və bu, onlara evləndikdən 5 il sonra vətəndaşlıq əldə etmək hüququ vasitəsilə daha geniş imkanlar verib.

Vətəndaşlıq hüququ olanlar daha strateji rayonlara göndərilib. Bəzi informatorlar kommersiya sferasında işlədiyi halda, digərləri mülki və hərbi diplomatiya, siyasət, QHT-lər, mədəniyyət, incəsənət və ilahiyyat kimi sahələrə nüfuz etmişlər.

Ən maraqlı məqam odur ki, bir müddət əvvəl Azərbaycanın Tehrandakı səfirliyinə qanlı basqın edən Yasin Hüseynzadənin də həmin komandadan olduğu müəyyənləşib. Urumiyyədə kitab satıcısı olan qardaşı Rəhman Hüseynzadənin İİKK-nin kəşfiyyatında xüsusi vəzifələri var. Yanvarın 27-də səfirliyə hücum planının əsası səfirliyin bütün əməkdaşlarının öldürülməsi idi. Azərbaycan diplomatlarının və təhlükəsizlik qüvvələrinin müqaviməti bu planı alt-üst etdi.

Göründüyü kimi, üzdə illərlə "din qardaşlığından", "mehriban qonşuluqdan" dəm vuran Tehran rejimi Azərbaycanda da ictimai-siyasi həyatı Suriya, livan və Yəmən kimi özünün zombi düşüncəli casus şəbəkəsi vasitəsi ilə iflic etməyi qarşısına başlıca məqsəd kimi qoyub. Lakin molla rejimi bir məqamı unudur ki, Azərbaycan Suriya, Livan və Yəmən deyil. Rəsmi Bakı hər şeyi görür və önləmlərini əvvəlcədən alır, vatı və zamanı gəldikdə isə milli maraqlarını təhdid edən məqamları anındaca zərərsizləşdirir.

▸▸ Səh. 4

---

MÜSAHİB

## Tarixi torpaqlarımıza qayıdacağıq



Mələhət İbrahimqızı, "Qərbi Azərbaycan İcması" Qadınlar Şurasının sədri

***Qarabağın, Şərqi Zəngəzurun, cənub-qərb sərhəd rayonlarımızın 30 illik işğaldan azad olunması azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarına, Zəngəzura qayıdışını zəruri edən əsas faktor kimi gündəmdədir. Tarix sübut edir ki, indiki Ermənistan imperialist qüvvələrin himayəsi altında qədim, tarixi Azərbaycan torpaqları üzərində qurulub. İrəvanda bu gün bir nəfər də olsa türk-azərbaycanlı yaşamır. Azərbaycan xalqı müxtəlif zamanlarda öz torpaqlarında soyqırımına, milli-etnik təmizləməyə, qətliamlara, deportasiyalara məruz qoyulmaqla ata-baba yurdlarını tərk edib, qaçqın həyatı yaşamağa məcbur edilib.***

*Bu sənədlər Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində bizim üçün əsas hüquqi akt olacaq*

▸▸ Səh. 3

---

MÜSAHİB



Elxan Şahinoğlu, politoloq

■ Qatillər və onların arxasındakı güc və güclər tapılsa belə, son hadisə iki ölkə arasındakı münasibətlərdə əlavə gərginlik mənbəyi olaraq qalacaq

■ Tehran İsrailə qarşı cavab aksiyası həyata keçirməyə çalışacaq

■ Terrorçu qapının açılmasından istifadə edərək İran polisinin susqunluğu fonunda, hətta polisə əl edərək "Sənlik bir iş yoxdur" deyərcəsinə "Kalaşnikov" avtomatı ilə səfirlik binasına daxil olur

▸▸ Səh. 5

---

GÜNÜN FOTOSU...



Fransada etiraz aksiyaları davam edir

---

GÜNÜN SİTATI

"Azərbaycan və İsrail arasında əməkdaşlıq regional sülh və sabitliyə müsbət təsir edəcək"



Yoav Qallant, İsrailin müdafiə naziri

---

KARİKATURA



Hamı yenidən maska taxacaq

---

## Gömrük sistemində mühüm dəyişiklik

Vüqar Bayramov, Milli Məclisin deputatı

Gömrük Məcəlləsinə edilən dəyişikliklərin əsas istiqamətlərindən biri idxal edilən məhsulların gömrük dəyərinin daha qısa müddətdə müəyyənləşdirilməsindən ibarətdir.

▸▸ Səh. 5

---

STATİSTİKA




■ **Ötən il ölkədə bankların kredit portfeli 17,6% artıb və həcmi 19,6 mlrd. manata çatıb. Cəmi kredit portfelinin 55,4%-ni biznes kreditləri təşkil edib.**

Bu kredit portfelində artım 11% olub və hal-hazırda 1 mlrd. manat təşkil edir. Kənd təsərrüfatı sahəsinə verilmiş kreditlərin həcmi də ötən il artaraq 12,5%-ə çatıb. Bank sektorunun xətti ilə verilmiş aqrar kredit portfelinin 1/3-i dövlət fondlarının, 2/3-si isə bankların öz vəsaitləri hesabına maliyyələşdirilib.

---




▸▸ Səh. 7

## Metro və avtobuslarda yeni qiymətlər

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev 2023-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi ilə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2023-cü il Gənclər üçün Prezident mükafatları verilib:**

Axundova Ülviyyə Süleyman qızı
Əliyev Kamran Əbülfəz oğlu
Əliyeva Adilə Həbib qızı
Həşimov Orxan İlqar oğlu
Hüseynli Cabbar Rasim oğlu
İslamov Bəxtiyar Qabil oğlu
Məsimov Nicat Rafiq oğlu
Nağıyeva Mehriban Vidadi qızı
Zəkəryəzadə Tural Namiq oğlu
birgə fəaliyyətə görə:
Xəlilov Şahin İlqar oğlu
İmanzadə Günay Fikrət qızı.

***

**Satmaq öhdəliyi ilə verilən mənzillərin kirayəçilərinin cərimələnəcəyi hal müəyyənləşib.**

Bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikdə əksini tapıb. İpoteka və Kredit Zəmanət Fondunun satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçisi tərəfindən ona məxsus olan sahənin saxlanması xərclərini, habelə mənzil qanunvericiliyinə uyğun olaraq çoxmənzilli binanın ümumi əmlakının saxlanması xərclərini vaxtında və tam məbləğdə çəkməkdən boyun qaçırılmasına görə ödənilməli olan ödənişlərin məbləğinin yüz faizindən yüz əlli faizinədək məbləğdə cərimə ediləcək. Eyni zamanda, İpoteka və Kredit Zəmanət Fondunun satmaq öhdəliyi ilə kirayəyə verdiyi yaşayış sahəsinin kirayəçilərinə Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada binanın idarə edilməsi üsulunun seçilməsində maneçilik törədilməsinə görə vəzifəli şəxslər üç yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə ediləcək.

# Dövlət qulluqçularına ödənişli fəaliyyətlə məşğul olmaq qadağan edilir



**Dövlət qulluqçularına pedaqoji fəaliyyət istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olmağa icazə verilməyəcək.**

Bu, "Dövlət qulluğu haqqında" qanuna təklif edilən dəyişikliklə əksini tapıb. Qeyd edək ki, qüvvədə olan qanuna əsasən, dövlət qulluqçusunun elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq hüququ var. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Türkiyə ilə ticarət dövriyyəmiz 6,4 mlrd. dollara çatıb

**Azərbaycanla Türkiyənin ticarət dövriyyəsinin həcmi neft-qaz ixracı daxil olmaqla 2022-ci ildə 6,4 milyard dollara yüksəlib. Bunu DEİK Türkiyə-Azərbaycan Əməkdaşlıq Şurasının sədri Kamal Koloğlu deyib.**

O bildirib ki, bu dövrdə neft-qaz istisna olmaqla Türkiyənin Azərbaycana ixracı 2,8 milyard dollara, Azərbaycanın ixracı isə 0,7 milyard dollara bərabər olub. Kamal Koloğlu neft-qaz məhsullarının iki ölkənin ticarət dövriyyəsində böyük paya sahib olduğunu qeyd edib.

"Qeyri-neft sektoru üzrə Azərbaycandan Türkiyəyə ixrac edilən əsas mallar daha çox pambıq, pambıq ipliyi, alüminium və gübrədir. Türkiyədən Azərbaycana isə daha çox elektron avadanlıqlar, məişət avadanlıqları, tibbi cihazlar, dərman məhsulları və mebel ixrac edilir" -deyə Kamal Koloğlu əlavə edib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AIIBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycan terror aktını hərtərəfli araşdırır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib. Görüşün videokonfrans formatında keçirilməsinə səbəb Türkiyə nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.***



> *Həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib*

## Gündəm

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Mahmut Özerin və Türkiyə Böyük Millət Məclisinin bir qrup üzvünün ölkəmizə səfərinin önəminə toxundu və bu səfərin əlaqələrimizin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Təhsil sahəsində əməkdaşlıqda böyük nailiyyətlərin əldə olunduğunu bildirən Prezident İlham Əliyev iki ölkənin dövlət başçılarının razılaşdırdığı kimi Azərbaycan-Türkiyə birgə universitetinin yaradılmasının böyük önəm daşıdığını dedi.

Mahmut Özer Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

**Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.**

Mahmut Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev səfirliyin digər mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçunun zərərsizləşdirildiyini və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısının alındığını vurğuladı. Dövlətimizin başçısı hazırda Azərbaycan tərəfindən bu terror aktının hərtərəfli şəkildə araşdırıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev vurğuladı ki, həmin şəxsin səfirliyimizin binasında törətdiyi terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən hər hansı ciddi tədbir görülməyib. İkinci Qarabağ müharibəsində Azərbaycanın Zəfəri münasibətilə bir daha təbriklərini çatdıran qonaq bildirdi ki, xalqlarımız ən çətin dövrlərdə həmişə bir-birinin yanında olub.

Təhsil sahəsində əlaqələrimizin son illərdə çox sürətlə inkişaf etdiyini deyən Mahmut Özer Türkiyənin bu sahədə ölkəmizlə təcrübəsini bölüşməkdən məmnunluq hissi keçirdiyini bildirdi. Görüşdə Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq ifadə olundu.

# Separatçı rejimin "iqtidar" davası

***Azərbaycan ekofəallarının Laçın yolundakı etiraz aksiyası artıq iki aya yaxındır ki, davam edir. Bu müddət ərzində Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərimizdə varlığını sürdürməyə çalışan separatçı rejimin qalıqları müxtəlif bəhanələr və apardıqları təbliğat kampaniyası ilə Xankəndidəki sadə erməniləri girov saxlamaqda davam edir.***



## Qarşıdurma

Qeyd edək ki, aksiyaya görə aparılan erməni təbliğatının əsas şüarı "120 min erməni humanitar fəlakətlə üz-üzə qalıb" tezisinə əsaslanır. Halbu ki, reallıq tamamilə başqadır. Laçın yolundan gün ərzində onlarla avtomobil keçir. Ermənilərin təminatı və humanitar məqsədlər üçün avtomobil yolu açıqdır və heç bir manea yaradılmır. Qarabağdakı ermənilərin tez-tez qaz və işığının, internetinin kəsilməsi, mağazaların boş qalmasını göstərən kadrlar isə separatçı rejimin sadə ermənilərə qarşı şantajından başqa bir şey deyil.

Əslində isə bu gün Xankəndidəki separatçı rejim "rəhbərliyi" ilə bağlı real vəziyyət tamamilə başqadır. Arutyunyan-Vardanyan qarşıdurması açıq müstəviyə keçməkdədir. Biri Paşinyanın kadrı, digəri isə Rusiyanın paşinyanın yerinə hazırladığı iddia edilən Kremlin adamıdır.

İkisi arasındakı "sürtüşmə"dən isə ən çox əziyyəti elə Xankəndidəki sadə ermənilər çəkir. Bu məqamda qeyd edək ki, artıq Azərbaycan vətəndaşlığını qəbul edərək separatçı rejimə yox deməyə razılıq verən ermənilərin sayının 30 min nəfəri keçdiyinə dair məlumatlar yayılıb. Bu Qarabağdakı ermənilərin real sayının təxminən 80 faizi anlamına gəlir.

İkili arasındakı rəqabət artıq media səhifələrinə daşınır. Vardanyanın pulla ələ aldığı qüvvələr açıq şəkildə Arutyunyana qarşı "hücumə" keçib.

**Vardanyanın tərəfini saxlayan erməni "ziyalıları" dünən Arutyunyana müraciət ünvanlayıb. Bəzi fikirlərə diqqət yetirək:**

"İnsanlar sizi itmiş uşaqların və evlərin, onların bədbəxtliklərinin və faciələrinin əsas günahkarı kimi görürlər. 44 günlük müharibədə "Artsax Respublikası" (Qarabağ red.) öz ərazisinin təxminən 70%-ni itirdi, Ermənistan ordusu 5 mindən çox insan itirdi, minlərlə ailə öz vətənlərini itirdi. Tarixin göstərdiyi kimi, ali komandirlər biabırçı məğlubiyyətdən sonra ya intihar edir, ya da istefa verir. Nə edəcəyinizə özünüz qərar verin".

> *Azərbaycan arasında sülh mümkündür, lakin Rusiyanın dəstəklədiyi oliqarx buna mane olmağa çalışır*

Göründüyü kimi, Vardanyan artıq Arutyunyanı intihara sövq edir.

Özü isə "blokada" şəraitində qalan əhali ilə "görüşlər" keçirərək onlara "yağlı vədlər" verməklə məşğuldur. "İş yerlərini saxlamaq üçün mümkün qədər kömək etməyə çalışıram. Təəssüf ki, bu vəziyyətdə çoxları işini itirdi. Hazırlanan proqramlar vasitəsilə biz həm sahibkarlıq subyektlərinə, həm də daha çətin sosial vəziyyətdə olan vətəndaşlara maksimum dəstək verməyə çalışacağıq", - deyə "dövlət naziri" dünən keçirdiyi "görüşlərdən" birində bildirib.

Bölgədəki əsas gərginliyin Vardanyan amilindən qaynaqlandığı, onun iki tərəf arasındakı sülhz danışıqlarına ciddi zərbə vurduğu beynəlxalq ekspertlər tərəfindən də təsdiqlənir.

Praqa şəhəri tarix boyu Avropa dövlətlərinin sülh müqavilələri imzalamaq və müzakirələr üçün son qoymaq üçün toplaşdığı məkan olub. Keçən ilin payızında isə Praqa Dağlıq Qarabağla bağlı 30 il davam edən mübahisənin nəhayət uzunmüddətli həllinə nail olmaq üçün Ermənistan və Azərbaycan arasında aparılan sülh danışıqlarına şahidlik edib.

**NATO Müttəfiq Qüvvələri Komandanlığının Yaxın Şərq və Şimali Afrika üzrə keçmiş analitiki Maurizio Geri "Politico" üçün yazdığı məqaləndə bildirir ki, Praqa razılaşması çox əlamətdar hadisə idi, çünki o vaxta qədər Ermənistan rəhbərliyi heç vaxt Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanımamışdı.** NATO-nun keçmiş eksperti məqalədə Ermənistan-Azərbaycan danışıqlarına Rusiya tərəfindən yaradılan maneənin erməni oliqarx Ruben Vardanyanın olduğu qənaətini bölüşüb. Onun fikrincə, Ermənistanla Azərbaycan arasında sülh mümkündür, lakin Rusiyanın dəstəklədiyi oliqarx buna mane olmağa çalışır.

Maurizio Geri xatırladıb ki, 2020-ci ildə 44 gün davam edən müharibə başa çatdıqdan sonra Bakı regionun reinteqrasiyası üçün sürətlə hərəkətə keçdi. O bildirib ki, Azərbaycan ərazisi kimi tanınan Qarabağdakı əhalinin erməni milliyyətindən olan hissəsi hələ 1990-cı illərin əvvəllərində qanunsuz şəkildə birtərəfli qaydada elan edilmiş "müstəqil anklav"da yaşayır.

"Bu separatçı dövlət heç vaxt beynəlxalq ictimaiyyətin bir üzvü, o cümlədən Ermənistanın özü tərəfindən tanınmayıb. Lakin 30 illik özünüidarədən sonra Qarabağ erməniləri indi Azərbaycanda etnik azlıq kimi gələcək statuslarından narahatdırlar. Bu narahatlıqların aradan qaldırılması və etnik ermənilərin hüquqlarını, təhlükəsizliyini, dini və mədəni azadlıqlarını təmin etmək Praqa danışıqlarının əsas məqsədi idi. Həmin danışıqlarda əhəmiyyətli irəliləyişlər əldə edildi. Lakin cəmi bir ay sonra rusiyalı erməni oliqarx Ruben Vardanyanın müdaxiləsindən sonra əhval-ruhiyyə kəskin şəkildə dəyişdi", - Maurizio Geri yazıb.

Müəllif bildirib ki, Vardanyanın Qarabağa gəliş vaxtı da xüsusi diqqət çəkir. "O, regiona Azərbaycanın bölgənin erməni rəhbərliyi ilə danışıqlara başlamağa hazırlaşdığı vaxt gəldi. Bu həmin vaxt idi ki, Qarabağ erməniləri Bakıya gələcəklərini Azərbaycanın daxilində qorunan azlıq kimi gördükləri barədə



Vardanyan-Arutyunyan ikilisi arasında münasibətlər gərginləşir

siqnallar göndərirdilər. Amma indi onlar Vardanyanın liderliyi altında mövqelərini dəyişərək maneəyə çevriliblər. Hətta İrəvandakı hökumətlə erməni oliqarx açıq şəkildə bir-birinə qarşı çıxırlar", - deyə Maurizio Geri vurğulayıb.

Müəllifin bildirdiyinə görə, indi narahatlıq ondan ibarətdir ki, Vardanyan öz nüfuzundan Qarabağın erməni icması arasında ictimai rəyi sülhə qarşı yönəltmək üçün istifadə edəcək. "Bu isə həm Bakının, həm də İrəvanın maraqları üçün fəlakətli olardı".

Səh. 6

## Qərbi Azərbaycan

***Qarabağın, Şərqi Zəngəzurun, cənub-qərb sərhəd rayonlarımızın 30 illik işğaldan azad olunması azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarına, Zəngəzura qayıdışını zəruri edən əsas faktor kimi gündəmdədir. Tarix sübut edir ki, indiki Ermənistan imperialist qüvvələrin himayəsi altında qədim, tarixi Azərbaycan torpaqları üzərində qurulub. İrəvanda bu gün bir nəfər də olsa türk-azərbaycanlı yaşamır. Azərbaycan xalqı müxtəlif zamanlarda öz torpaqlarında soyqırımına, milli-etnik təmizləməyə, qətliamlara, deportasiyalara məruz qoyulmaqla ata-baba yurdlarını tərk edib, qaçqın həyatı yaşamağa məcbur edilib. Nəhayət, bu gün Azərbaycan xalqı öz dövlətinin gücü, səyi ilə Qərbi Azərbaycan haqqını bərpa etmək istəyir və Qayıdış Konsepsiyasının həyata keçirilməsi istiqamətində görüləcək işlər və perspektivlər haqqında yol xəritəsini öyrənir. "Həftə içi" qəzetinin müsahibi verən "Qərbi Azərbaycan İcması" Qadınlar Şurasının sədri Məlahət İbrahimqızıdır.***



**Məlahət İbrahimqızı,**
"Qərbi Azərbaycan İcması"
Qadınlar Şurasının sədri

# Tarixi torpaqlarımıza qayıdacağıq

***- Qərbi Azərbaycana Qayıdış Konsepsiyası özlüyündə tarix, ölkə, vətəndaşlar, dünya ictimaiyyəti qarşısında nəyi diqtə edir?***

- Qərbi Azərbaycan İcmasının hazırladığı Konsepsiya hər kəsə mesaj verdi ki, Azərbaycanın tarixi, əzəli torpaqlarında yaşayan azərbaycanlılar zaman-zaman imperialist qüvvələrin apardığı siyasət və erməni vandallığı nəticədində öz yurd yerlərindən qovulub, didərgin salınıb, deportasiyalara məruz qalıblar. Bu Konsepsiya bir daha onu bəyan etdi ki, indiki Ermənistan ərazisində qalan tarixi Azərbaycan torpaqlarında doğulub, yaşamış, etnik təmizləməyə, soyqırımına, deportasyalara məruz qalmış minlərlə bacı-qardaşımız öz yurdlarında, evlərində itirilmiş hüquqlarını bərpa etməlidir. Bu, sülh yolu və beynəlxalq hüquq, beynəlxalq təcrübələrdən istifadə edərək bərpa olunmalıdır. Bu üç prinsip Konsepsiyanın əsasını, məğzini təşkil edir.

***- Ermənistan Azərbaycanı önun ərazilərinə iddia etməkdə günühlandırmaqla səs-küy salır, sülhyaratma niyyətimizi özünə təhdid kimi təbliğ edir. Bu amil bizim hədəflərimiz qarşısında hansı maneələri yarada bilər?***

- Bu, rəsmi Yerevanın Azərbaycana qarşı növbəti şantajı, yalanı, sərsəmləməsidir. Biz bir qədər əvvəl Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas mahiyyətini açıqladıq. Hətta müharibə dövründə və müharibədən sonra da möhtərəm Prezidentimiz demişdi ki, biz Qərbi Azərbaycan qaçqınlarının itirilmiş hüquqlarının bərpasını tanklar üzərində deyil, danışıqlar yolu, sülhü, dinc yaşayış prinsiplərini ehtiva edən yolla hərəkət etməklə qazanmağa çalışacağıq. Niyyətimiz regionda sülhün bərqərar olunmasıdır. Prezident qeyd etmişdi ki, o torpaqlar tarix boyu azərbaycanlıların olub və mən nənəmin, babamın orada qalan məzarlarını ziyarət etmək istəyirəm. Biz öz torpaqlarımıza "haydut qanunları" ilə getməli deyilik! Biz beynəlxalq hüquqa əsaslanaraq öz tarixi torpaqlarımıza qayıdacağıq.

Əlbəttə ki, bütün beynəlxalq qanunlarda, eləcə də BMT-nin qəbul etdiyi bütün sənədlərdə deportasiyaya məruz qalmış insanların öz torpaqlarına qayıtmaq haqqının, hüququnun olduğu göstərilib. Bütün Azərbaycan xalqı, eləcə də Qərbi azərbaycanlılar da bu faktı dəfələrlə bəyan edib.

Ermənistan özü işğalçı, vandal siyasət yürütdüyü halda, bu gün öz mənfur adını başqasına qoymağa çalışır. Ermənistan işğalçı dövlətdir və Azərbaycana qarşı 200 ildir törətdiyi cinayətlərini, soyqırımları ört-basdır etmək üçün ölkəmizə qarşı informasiya müharibəsi aparıb, bizi təqsirli çıxarmağa cəhdlər edir. Özləri qətliamlar, soyqırımlar törətsələr də, guya türklər tərəfindən soyqırımına məruz qaldıqlarını uydurublar. Bu, erməni xislətidir. Ona görə də belə erməni şantajlarına, siyasi-ideoloji sərsəm çıxışlara fikir vermədən son məqsədə çatıb, haqqımızı almaq üçün mübarizəmizdə davamlı olacağıq. Biz beynəlxalq hüququn tələblərindən kənara çıxmayacağıq və missiyamız bölgəyə, millətlərə, xalqlara sülhün təmin edilməsinə xidmət edir.

***- Qərbi Azərbaycandan qovulub deportasiyaya məruz qalmış, qaçqın yaşamaq məcburiyyəti ilə evsiz-eşiksiz qalmış 100 minlərlə insanın arasında əzilən, hüquqları pozulan, incidilən, təhqir olunan qadınlarımız, qızlarımızın hüquqlarının bərpası, təzminatın alınması yönündə beynəlxalq ictimaiyyət qarşısında hansı həyəcan siqnalı çalınmalıdır? Bu istiqamətdə hansı işlərə başlanılıb?***

- Təkcə XX əsrdə Qərbi Azərbaycandan milyondan çox insanımız didərgin salınıb. İnsanlarımızın öz yurdundan, torpağından qovulmasına, didərgin salınmasına nə ad verilsə də, bir fakt var: insanlarımızın hüquqları pozulub. Tarixi faktlara istinad etsək, hələ 1905-1907, 1918, 1948-1953, 1988-1989-cu illər Azərbayacan xalqı kütləvi olaraq deportasiyalara, qətliamlara, soyqırımlara məruz qalmışdı. Bu ağır taleni yaşayan milyondan çox qaçqının, deportasiya, etnik təmizləmə və soyqırıma məruz qalmış insanlarımzın içərisində ən ağır vəhşiliklərə qadınlarımız, qızlarımız, qocalarımız, uşaqlarımız məruz qoyulub. Bu gün dünya hərb, silah, müharibədən uzaqda dayanan tərəf olaraq qadınların səsini daha çox eşidir. Beynəlxalq təşkilatlar qadınların münaqişənin həllində iştirakını, sülh prosesində, sülhün əldə olunmasında rolunu zəruri hesab edir. Məsələn, BMT-nin 2000-ci ildə qəbul olunmuş tarixi bir qətnaməsi var. O qətnamədə qadınların müharibələrdə, münaqişələrdə necə ağır mərhumiyyətlərə uğraması, deportasiyalara məruz qalması, zorakılıqlarla üzləşməsini istinad edən fikirlər var. Həmin sənəddə deportasiyalara məruz qalmış qadınların kifayət qədər hüquqları açıqlanır və əsas məğzi qadınların münaqişələrin həllində, sülh quruculuğunda iştirakı zərurət kimi qeyd edilir. Həmin qətnamə BMT-yə daxil olan ölkələrə bir öhdəlik kimi təqdim olunub. O cümlədən ona Azərbaycan da imza atıb. Bizim qaçqın qadınların pozulmuş hüquqları, məruz qaldığı zorakılıq, deportasiya ilə bağlı BMT-nin qəbul etdiyi həmin o 1325 saylı qətnaməyə istinadla çatacağıq. Onu da qeyd edim ki, IV beynəlxalq Pekin Konfransının qəbul etdiyi qərarlar, strategiyalarda bu kateqoriyadan olan qadın hüquqlarının qorunması bütün dövlətlər üçün öhdəlik kimi qəbul olunur. Pekin Konfransının qəbul etdiyi həmin sənəddə 12 strateji xətt var. Onlardan biri qadınların hüquqlarının qorunmasını tələb edir. Beynəlxalq müstəvidə qəbul olunan bu sənədlər Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində bizim üçün əsas

> *"Bu sənədlər Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində bizim üçün əsas hüquqi akt olacaq*

hüquqi akt olacaq. Biz bu hüquqi aktlara əsaslanıb beynəlxalq hüquq çərçivəsində fəaliyyət göstərəcəyik.

Bu gün Cənubi Qafqazda dayanıqlı sülh, dayanıqlı barış olarsa inkişaf, rifah olar. Bunun üçün dünya qadınlarının bu prosesə qatılmasına ehtiyac var. Gələcəkdə Cənubi Qafqaza daxil olan Gürcüstan qadınları ilə əməkdaşlıq edəcəyik və erməni qadınlarını da bu prosesə qoşmağa çağıracağıq. Elə qəzetiniz vasitəsilə də həmin qadınlara bildiririk ki, son 30 ildə Ermənistanın faşist düşüncəli siyasətçilərinin apardığı işğal və müharibələr nəticəsində Azərbaycan torpaqlarında işğallar, soyqırımlar törədiblər.

Buna görə də erməni anaları öz övladlarını itiriblər. Azərbaycan Prezidentinin tarixi bir çıxışı var idi: əgər erməni anaları övladlarının ölməsini istəmirlərsə, onları Azərbaycan torpaqlarında müharibəyə göndərməsinlər. Bundan sonra erməni qadını səfil vəziyyətə düşmək istəmirsə, övladlarının faşist ermənilərin çirkli işlərinə qatılmasını istəmirlərsə, bölgədə sülhün bərqərar olunması üçün Azərbaycan qadınları ilə əməkdaşlıq etməlidirlər. Erməni qadınları Ermənistanda olan revanşist qüvvələrə qarşı mübarizə aparmalıdırlar. İcma qadınları olaraq gələcəkdə bu istiqamətdə də bir sıra tədbirlər həyata keçirdəcəyik.

***- Öz torpaqlarından qovularaq hüquqları pozulan qadınlar necə bir araya gələcək, bu istiqamətdə hansı işlər nəzərdə tutulur?***

- İcma yenicə fəaliyyətə başlayıb. Qadınlar münaqişələrin həllində və sülhyaratmada əsas amil kimi qəbul olunduğu üçün bizim Qərbi Azərbaycana Qayıdış Prosesində qadınların gücündən istifadə olunmalıdır.

Eyni zamanda biz İcmaya müraciət edən bütün Qərbi Azərbaycan qadınlarının hər biri ilə görüşür, tədbirlər həyata keçiririk. Qadınlar Şurası analarımızla, qızlarımızla vaxtaşırı görüşüb, onların problemlərinin öyrənilməsi və beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyətini davam etdirəcək.

Təkcə 1988-1991-ci illərdə Qərbi Azərbaycandan 300 min qaçqın gəlib, onun 150 mini qadındır. Təbii ki, qısa müddətdə bu qadınların problemlərinin öyrənilməsi və hüquqlarının bərpası yönündə beynəlxalq təşkilatlara, məhkəmələrə müraciətlər göndərmək çətindir. Proses bu yöndə inkişaf edəcək. Deportasiya, etnik təmizləmə, soyqırımına məruz qalmış qadınlarımızın haqları bərpa edilməlidir.

***- Qərbi Azərbaycan tarixinə baxanda o torpaqlarımızda hansı milli-mədəni-maddi irsimizin dağıldığı barədə faktlar var?***

- Ermənilər Qərbi Azərbaycanda bizim milli-mənəvi abidələrini dağıdıblar, toponimlərimizi dəyişdiriblər. Ona görə də əsas hədəfimiz beynəlxalq ictimaiyyətin, dünya dövlətlərinin bu həqiqəti tanımasıdır, bilməsidir. Biz YUNESKO və digər beynəlxalq təşkilatlardan tələb edəcəyik ki, o tarixi torpaqlarımızda monitorinqlər keçirilsin. Orada bizim təkcə 1988-ci ildə 300-dən yuxarı kəndin sakini köçürdülüb. Həmin kəndlərdən 200-ü tamamilə boşdur. O kəndlərdə, şəhərlərdə bizim millətin var olmasını sübut edən abidələri, qəbiristanlıqları yenidən araşdırıb, tapmaq, tədqiq etmək lazımdır. Bu gün Ermənistan ərazisində olan torpaqlarımıza gedə bilmirik. Ona görə də azərbaycanlıların tarixi haqqını bərpa etmək missiyasında beynəlxalq təşkilatların xüsusi rolu olacaq.

Dünyada Ermənistan kimi monoetnik dövlətlər yoxdur. Belə monoetnik tayfalar əhalisi az olan uzaq adalarda, haradasa Afrikanın müəyyən sivilizasiyadan kənar tayfalarında var. Amma Avrasiya məkanında monoetnik dövlət yoxdur. Statistik faktlar göstərir ki, Ermənistanda əhalinin çoxu azərbaycanlılar olub. Bu gün orada bir dənə də türk-azərbaycanlı yoxdur. Beynəlxalq aləm bu fakta diqqət yetirməlidir. Ermənistan ərazisinin Azərbaycanın tarixi torpaqları olmasını sübut edən abidələr, şəkillər, sənədlər var. Bunlar beynəlxalq təşkilatlarda araşdırılmalı, təhlil edilməlidir.

Bu günlərdə Qərbi Azərbaycan İcmasının BMT-yə göndərdiyi müraciət BMT-nin rəhbər qurumları tərəfindən Ekosos, Təhlükəsizlik Şurası və digər qurumlarda BMT-nin gündəliyinə salınmış sənəd kimi üzv dövlətlərə paylanıb. Bu, xalqımız üçün çox böyük uğurdur. Qərbi Azərbaycanda doğulmuş və torpaqların işğaldan azad olunması prosesində şəhid olmuş vətəndaşlarımız var. Bütövlükdə xalqımız itirilmiş hüquqlarının bərpasına öz töhfəsini verməlidir.

***- BMT-yə göndərilən və Azər baycan üçün uğur hesab etdiyiniz həmin sənəd qarşıda qayıdışımızla bağlı hansı perspektivi açır?***

- Bu, artıq indiki Ermənistan ərazisinin qərbi azərbaycanlıların tarixi torpaqları olmasının bir etirafdır. Qərbi Azərbaycan icmasının bəyanatının BMT-nin gündəliyinə salınmış bir sənəd kimi üzv dövlətlərə paylanması Azərbaycanın tarixi torpaqları ilə bağlı rəsmi sənəddir. Azərbaycan tarixi dünyanın gözü qarşısındadır. Bu müraciətin qəbul olunması, Azərbaycan torpaqlarının tanıdılması baxımından uğurdur və qarşımıza qoyduğumuz məqsədə çatmaq üçün bizə böyük dəstək olacaq.

***- Orta məktəblərdə, dərsliklərdə, ümumilikdə, cəmiyyətin təbliğat strukturlarında, xüsusilə TV-lərdə Qərbi Azərbaycan mövzusu necə təqdim olunur?***

- Hələ orta məktəb dərsliklərində, tarix dərslərində təbliğat ürəkaçan deyil. Amma Konsepsiyada, İcmanın tədbirlər planında da var ki, ölkədə orta məktəblərdə, ictimaiyyət arasında Qərbi Azərbaycan tarixi düzgün təbliğ olunmalıdır. Hesab edirəm, konsepsiya elan olunub və bu məsələ bütövlükdə Azərbaycan xalqının əsas problemi kimi həll olunacaq. Qərbi Azərbaycanda itirilmiş hüquqların bərpası Qarabağın azad olunmasından keçirdi. Təsadüfi deyil ki, Şuşa qalasının bir "Zəngəzur", bir "İrəvan" qapısı var idi. Ona görə də hesab edirəm, bu məsələ ciddi təbliğ olunmalıdır. Bu prosesdə jurnalistlərin, medianın böyük işi, məsuliyyəti, öhdəliyi var.

***- Qərbi Azərbaycanın azərbaycanlıların Ana Vətəni olduğunu bir fakt kimi ortaya qoymaq üçün əlimizdə çoxlu fakt var. O sırada sadə bir məqamı qeyd edək: sizin kəndinizin adı nə idi?***

- Mən İndiki Ermənistanın Basarkeçər rayonunun Kiçik Məzrə kəndindənəm. O yerlər bizim ata-baba yurdumuzdur. İnanıram, Qarabağın azadlığı prosesi azərbaycanlıların bütünlüklə öz tarixi torpaqlarına qayıdışını təmin edəcək və biz də öz kəndimizə, ata-baba yurdlarımıza gedib, o müqəddəs torpağımızı ziyarət edə biləcəyik.

***✍ Tahirə Qafarlı***

# Amasiyada mənə iş vermirdilər...

***Deportasiya Qurbanları Cəmiyyətinin təsisçilərindən və həmin qurumun idarə heyətinin üzvlərindən biri olan sabiq baş prokuror Əli Ömərovla hafta.az üçün söhbətimizdə hələ öz torpaqlarında yaşadıqları dövrlərdə Ermənistan tərəfindən Qərbi azərbaycanlı soydaşlarımızın haqqlarının tapdanması, keçmiş Dağlıq Qarabağ ərazisinin azərbaycanlılarla məskunlaşmasının vacibliyi, yeni yaradılmış Qərbi Azərbaycana Qayıdış İcmasının fəaliyyəti, həmin torpaqlarımıza gələcək qayıdışın gerçək çətinlikləri və s. haqda danışdıq.***



**Əli Ömərov,**
sabiq baş prokuror

## Müsahib

***- Əli müəllim, sizin uşaqlığınız və gənclyinizin xeyli hissəsi "Ermənistan" adlanan Qərbi Azərbaycanda keçib. O dövrdə erməni hökumətləri tərəfindən soydaşlarımıza qarşı ayrıseçkilik hiss olunurdumu?***

- Bu gün Azərbaycanın guya Qarabağdakı ermənilərin hüququnu tapdamağından, onları blokadada saxlamağəndan şikayətlənir. Amma özləri hələ sovet dövründə "Ermənistan" adlanan Qərbi Azərbaycanda yaşayan azərbaycanlılara qarşı etdikləri haqsızlıqlardan danışmırlar... Ermənistanın bizim yaşadığımız Amasiya rayonuna yaxın olan keçmiş Leninakan (indiki Gümrü) şəhərindəki ermənilərin isə demək olar ki, hamısı daşnak xislətlidirlər. Onlar, sanki elə daim axtarırlar ki, bir türk başı tapıb kəsələr. Bu baxımdan biz hələ sovet dövründə Qərbi Azərbaycanda böyük mənəvi çətinliklər, sıxıntılar içində yaşayırdıq.

Düzdü, Amasiya rayonunda ermənilərin kompakt yaşadığı cəmi 3-4 kənd var idi. Bu rayonda azərbaycanlılar çox idi. Bizim Göllü kəndindən savayı, soydaşlarımızın yaşadığı böyük kəndlər var idi: Əzizbəyov (keçmiş Qaraçanta), Daşkörpü, Güllübulaq, Oxçuoğlu və s... Buna baxmayaraq, ermənilərin düşmənçiliyini, bizə qarşı ayrı-seçkiliklərini, Azərbaycan türklərinə, müsəlmanlara qarşı diskriminasiya siyasəti yürütdüklərini gənc yaşlarımdan hiss edirdim. Təsəvvür edin ki, 1970-ci illərin əvvəlində Amasiya rayonunda yeganə azərbaycanlı hüquqşünas mən idim. Bununla belə, öz ixtisasım üzrə mənə iş vermirdilər. Yalnız sonradan Moskvaya-filana müraciət etdikdən sonra ali təhsilli hüquqşünas olaraq mənə mühafizə idarəsində iş verdilər...

***- 1970-ci illərin ortalarından, təxminən, 4 il keçmiş Dağlıq Qarabağdakı ermənilərin də arasında - Xankəndidə prokurorluq orqanlarında çalışmısınız. Oradakı ermənilərlə Ermənistandakılar arasında hansısa fərq hiss etmisinizmi?***

- Qarabağda - Xankəndidə - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayət Prokurorluğunda 4 il baş müstəntiq işləmişəm. Odur ki, Qərbi Azərbaycandakı kimi keçmiş Dağlıq Qarabağ ərazisindəki ermənilərin də xislətinə, xarakterinə yaxşı bələdəm... Sadəcə, orada hiss etmişəm ki, Qarabağdakı ermənilər qərbi azərbaycandakılara nisbətən azərbaycanlılara münasibətdə yumşaqdırlar... O vaxt orada azərbaycanlılar çox idi. Xeyli soydaşımız hökumət qurumu və hüquq-mühafizə orqanlarında işləyirdi. Azərbaycanlı müəllim və tələbələrin çox olduğu pedaqoji institut var idi. Xüsusən Ağdamın yaxın olması erməniləri daim qorxu altında saxlayırdı. Onların Ağdamdan qorxusu çox idi. Bu səbəblərdən bizlərə qarşı o qədər də baş qaldıra bilmirdilər. 1988-ci ildən bəri Moskva arxalarında durub onları qızışdırdıqdan, Xankəndidəki, ətraf kəndlərdəki azərbaycanlılar köçürüldükdən və xüsusən Rusiyanın 366-cı alayının köməyi ilə Xocalı, Ağdam işğal edildikdən sonra ermənilər daha çox quduzlaşdılar... Hesab edirəm, Azərbaycan Dövləti, ilk növbədə, keçmiş Dağlıq Qarabağ ərazisindən köçkün soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıdışını təmin etməlidir. Yenə də əvvəlki kimi Şuşa, Malıbəyli, Kərkicahan, Xankəndi, Xocalı, Əsgəran ətrafı, Ağdərə, Hadrut, Xocavənd - hamısında azərbaycanlılar məskunlaşmalı və çoxluq təşkil etməlidirlər. Bu halda ermənilərin yaşamaq istəyəni Qarabağda yaşayacaq, yaşamaq istəməyəni çıxıb gedəcəklər. Yəni bütün hallarda qüvvələr nisbəti Azərbaycanın xeyrinə dəyişməlidir...

> *"Biz hələ sovet dövründə Qərbi Azərbaycanda böyük mənəvi çətinliklər, sıxıntılar içində yaşayırdıq*

***- İnşAllah, Qərbi Azərbaycana qayıdış artıq reallaşacağı zaman yenidən haylarla yanaşı yaşamaq problemi həllini necə tapacaq?***

- Düzdür, Qərbi Azərbaycana qayıdış üçün təşkilatlanırıq, çalışırıq. Bu, xeyli müşkül məsələdir. Bunun çox çətinlikləri olacaq. Hər bir azərbaycanlı, xüsusən də Qərbi azərbaycanlı kimi mən də arzu edərdim ki, qayıdaq. İnsan harada doğulubsa, gecə yuxusunda da o yerləri görür. Məsələn, mən Azərbaycan Respublikasında 40 ildir yaşasam da, həmişə gecələr yuxularıma Qərbi Azərbaycandakı - Amasiyadakı kəndimiz, dağlarımız, meşələrimiz, bulaqlarımız girir....

Təki Allah etsin, qayıdaq... Ancaq Qərbi Azərbaycana qayıtmaq, soydaşlarımızın orada yenidən ermənilərlə yanaşı, dinc yaşaması üçün orada həm yerli, həm beynəlxalq səviyyədə azərbaycanlıları mühafizə edən güclü qüvvələr formalaşdırmaq lazımdı. Türkiyə ilə bununla bağlı müqavilə bağlamaq gərəkdir. Yəni Qərbi Azərbaycana real qayıdışımızı təmin etmək üçün Türkiyənin orada hərbi qüvvəsi, ordusu yerləşdirilməlidir. Yoxsa ermənilər elə murdar millətdirlər ki, gecə yatdığın yerdə gəlib evini partladarlar, hər şey edərlər... Bir sözlə, soydaşlarımızın ciddi mühafizə təminatı olmasa, Qərbi Azərbaycanda yaşaması çox çətin olar. Özü də ki, ermənilər 44 günlük savaşdan sonra Azərbaycan xalqına məğlub olmalarını, aldıqları bu yaranı heç vaxt unutmayacaqlar. Bunu birdəfəlik bilmək lazımdır...

***- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, nəhayət, rəsmən vəzifəsindən azad edilib. Bəs sizcə, bölgədə 30 ilə yaxın bir vaxtda yaranmış sosial, maliyyə, iqtisadi, hüquqi və s. problemləri qısa müddətdə həll edə biləcəyikmi?***

- Öncədən proqnoz vermək çətindir. Əsas məsələ odur ki, qanunun aliliyi təmin olunarsa, hər bir bölgədə olduğu kimi, Naxçıvanda da problemləri tez bir zamanda həll etmək mümkündür. Söhbət qanunun aliliyindən gedir; hansı dövlətdə, hansı ölkədə qanun ali deyilsə, orada heç zaman görülən işlərdən müsbət nəticə gözləmək olmaz... Kimliyindən, vəzifəsindən, sosial mövqeyindən, varından-dövlətindən asılı olmayaraq qanun hamı üçün eyni olarsa, hər yerdə hər iş yaxşı gedəcəkdir...

***- Naxçıvan Muxtar Respublikasının statusunun ləğv edilməsi ilə bağlı söz-söhbətlərə necə münasibət bildirərdiniz?***

- Hesab edirəm, əslində Azərbaycan Respublikası unitar dövlət olduğundan onun tərkibində başqa bir respublikanın olması düzgün hal deyil. Unitar dövlətdə idarəçilik sistemi bir mərkəzdən aparılmalıdır. Odur ki, Naxçıvanın sovet dövründə bünövrəsi qoyulmuş muxtar respublika statusunun ləğv edilməsi zəruridir. Son dövrdə baş verənlər də sübut etdi ki, bir mərkəzdən idarəçilik daha doğrudur... Və statusun ləğv olunması üçün ölkə üzrə referendum keçirilməli və Konstitusiyada dəyişiklik edilməlidir...

***- Ötən ilin sonunda yenicə yaradılmış Qərbi Azərbaycan İcmasının yerləşdiyi binanın açılışı oldu. Orada dövlət başçısı İlham Əliyev də çıxış edərək gələcəkdə soydaşlarımızın Qərbi Azərbaycana qayıdışının təminatı üçün görüləcək işlərin vacibliyindən danışdı. Sizin də o yurdlardan qaçqın düşmüş bir insan kimi bu haqda fikirlərinizi bilmək maraqlı olardı...***

- Qərbi Azərbaycan İcmasının yaradılması haqqında Prezidentin təşəbbüsünü alqışlamaq gərəkdir. Çünki uzun illərdən bəri bu məsələ kölgədə qalmışdı. Heç kim rəsmi baxımdan Qərbi Azərbaycandan didərgin soydaşlarımızın öz dədə-baba yurdlarına qaytarılması problemi ilə maraqlanmırdı. Nəhayət, dövlət başçısının bu məsələni şəxsən qabartması və önə çəkməsi, bununla bağlı qərar qəbul etməsi, fikrimcə, bütün Qərbi Azərbaycanlıların ürəyincədir...

Yaxşı yadımdadır, 1988-ci ildən bəri Qərbi azərbaycanlılar öz doğma yurdlarından didərgin düşəndən sonra hansı zülmləri çəkirdilər. Hətta onların Azərbaycanda qeydiyyata alınması işi də olduqca müşkül məsələyə çevrilmişdi. O vaxtkı Qaçqınlar Komitəsində bunun üçün, bir arayış üçün qərbi azərbaycanlılardan pul istəyirdilər. Yadımdadır ki, mən baş prokuror işləyərkən bir qrup qaçqın soydaşımız bununla bağlı yanıma şikayətə gəldilər. Onlardan soruşdum ki, konkret olaraq kimlərin sizdən arayış üçün pul istədiyini deyə bilərsinizmi. Onlar bir neçə adamın adını çəkdilər, amma yazılı qaydada vermədiklərinə görə mən o adamların adını çəkmək istəmirəm. Əlimdə yazılı əsasım yoxdur...

Qərbi Azərbaycan İcmasının İdarə Heyətində layiqli şəxslər var. Məsələn, Misir Mərdanov, Əhliman Əmiraslanov, Vahid Əziz, Hikmət Babaoğlu. Bunları həmin quruma rəhbərlik etməyə layiq hesab edirəm. Qərbi Azərbaycan İcmasının İdarə Heyətinə elə şəxslər seçilməlidir ki, onlar həm Qərbi Azərbaycan camaatı arasında böyük hörmətə malik olsunlar, həm də bizim hazırda "Ermənistan" adlandırılan torpaqlarımızın keçmiş tarixində də tanınan müdrik, əsil ağsaqqal adamlar olsun. Bu baxımdan Deportasiya Qurbanları Cəmiyyəti adından, hesab edirəm, Qərbi Azərbaycan İcmasının İdarə Heyətində bizim qurumun da əksər rəhbər üzvləri iştirak etməli idi. Ona görə ki, bu cəmiyyəti 20 ildir ki, yaratmışıq və həmin müddətdə daim qərbi azərbaycanlıların hüquqlarının müdafiəsinə qalxmışıq. Məsələn, şəxsən mətbuata dəfələrlə bu mövzuda müsahibə vermişəm. Bildirmişəm ki, Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımıza da Qarabağ köçkünlərinə verilən imtiyazlardan verilməlidir. Halbuki bu haqda həm mərhum Prezident Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin fərmanları var.

***- Bəs konkret olaraq kimləri qeyd edilən qurumda görmək istərdiniz?***

- Məsələn, sabiq deputat və professor Eldar Abbasovu, Paşa Qəlbinuru, Firudin Cəlilovu, Köçəri Nağıbəylini və s. kimi tanınmış adamları təklif edərdim. Elə Hafiz Hacıyevi götürək, neçə illərdir Qərbi Azərbaycandan ötrü fəallıq göstərir, çıxışlar edir... Heç hələ özümü demirəm... Halbuki, qərbi azərbaycanlıların hamısı məni yaxşı tanıyır. Əgər yadınızdadırsa, hələ 1992-ci ildə Xocalı faciəsindən sonra Qərbi Azərbaycandan qaçqın soydaşlarımız haqda müzakirələr gedirdi. Mən o vaxt üzümü rəhbərliyə tutub dedim ki, 1988-ci ildən Ermənistandan qaçqın düşən soydaşlarımızın hüquqları ilk günlərdən pozulub. O vaxtkı rəhbərlər Moskvanın göstərişi ilə onların Qarabağda, Şuşada, Xocalıda və s. yerləşməsinə imkan verməyiblər. Onları Şuşadan, Xocalıdan polis gücünə yük maşınlarına mindirib çıxarıb iqliminə öyrəşmədikləri isti aran bölgələrə köçürürüdülər. Əgər o vaxt qərbi azərbaycanlılar kompakt şəkildə Şuşada, Xocalıda yerləşdirilsəydi, ermənilər Qarabağda başımıza bu qədər oyunlar aça, ərazilərimizi işğal edə bilməzdilər...

***✍ Sultan Laçın***

# Macarıstanla əməkdaşlıqda yeni mərhələ

## Layihə

***Bu gün Azərbaycanda həyata keçirilən rasional siyasət kursu, uğurlu islahatlar, ölkəmizin geopolitik mövqelərinin daha da möhkəmlənməsinə, region ölkələri və digər dövlətlərlə əməkdaşlığın dərindən inkişafına böyük töhfələr verir. Prezident İlham Əliyevin xarici ölkələrə etdiyi səfərlər və sonuncu olaraq, Macarıstana rəsmi səfəri ölkəmizin Mərkəzi və Şərqi Avropada da böyük təsir imkanları formalaşdırdığını göstərir. Qeyd edək ki, Azərbaycan ilə Macarıstan arasında siyasi əlaqələr yüksək səviyyədədir. İkitərəfli münasibətlər dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edir.***



1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanıyan Macarıstanla diplomatik münasibətlər 1992-ci il aprelin 27-də qurulub və ötən il diplomatik münasibətlərimizin qurulmasının 30 illiyi qeyd olunub. 2004-cü ildə Azərbaycanın Macarıstanda, 2009-cu ildə isə Macarıstanın ölkəmizdə səfirliyi təsis olunub. Bu vaxtadək iki ölkə arasında imzalanan 50 sənəd müqavilə-hüquq bazasının möhkəmlənməsində mühüm rol oynayıb.

Çoxtərəfli platformada, xüsusilə BMT, ATƏT, NATO, Aİ, Şərq Tərəfdaşlığı, Vişeqrad Qrupu, Türk Dövlətləri Təşkilatı çərçivəsində iki ölkə arasında davamlı əməkdaşlıq əlaqələri inkişaf etdirilir.

İki dövlət arasında iqtisadi əlaqələrdə də davamlı inkişaf meyilləri müşahidə edilir. Azərbaycan və Macarıstan geniş iqtisadi potensiala malikdir. İki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, həmçinin iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər iqtisadi əməkdaşlığın daha da genişlənməsində əhəmiyyətli baza rolunu oynayır. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkət əsasən kənd təsərrüfat, nəqliyyat, ticarət, xidmət sahələrində fəaliyyət göstərirlər. Macarıstan Azərbaycana 1,1 milyard ABŞ dolları məbləğində, Azərbaycan isə Macarıstana 18,1 milyon ABŞ dolları investisiya yatırıb.

Macarıstan Azərbaycanla enerji sahəsində əməkdaşlığa da xüsusi önəm verir. Bu ölkə Cənub Qaz Dəhlizi (CQD) layihəsini dəstəkləyir və ona qoşulmaqla bağlı marağını ifadə edib. Macarıstan tərəfi CQD-nin Məşvərət Şurasının illik Nazirlər görüşlərində bir qayda olaraq nazir səviyyəsində təmsil olunur. 2023-cü ilin fevralında Bakıda keçiriləcək CQD-nin Məşvərət Şurasının illik iclasında Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyyartonun iştirakı nəzərdə tutulur. Digər bir nüansı xatırlatmaq yerinə düşər ki, işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa-quruculuq işlərində iştiraka Macarıstan şirkətləri də böyük maraq göstərirlər və bununla bağlı müvafiq layihələr təqdim ediblər. Macarıstan işğaldan azad edilmiş ərazilərimizdə minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə könüllü töhfə olaraq 25.000 avro ianə edib. Yeni Azərbaycan-Macarıstan əlaqələri təkcə bu gün üçün deyil, gələcək üçün də vacib əhəmiyyətə malikdir. Dövlətimizin başçısının Macarıstana səfəri bu əlaqələrin gələcək perspektivləri üçün vacib yeniliklərə səbəb olacaq.



**Tahir Rzayev**,
Milli Məclisin deputatı

■ **Mövzu ilə bağlı Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanla Macarıstan arasında münasibətlər strateji tərəfdaşlığa çevrilir:** "Azərbaycan Macarıstan münasibətləri dostluğa, qardaşlığa, dövlətlərin və xalqların firavanlığına, inkişafına əsaslanır. Qarşılıqlı əməkdaşlıq bu gün də davam edir və hər iki ölkə əlaqələrin daha da möhkəmləndirilməsi üçün ciddi tədbirlər həyata keçirməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Macarıstana rəsmi səfəri və səfər zamanı strateji tərəfdaşlığın dərinləşməsinə dair imzalanmış Birgə Bəyannamə bunun əyani nümunəsidir. Bu Azərbaycan - Macarıstan tərəfindən strateji tərəfdaşlığa dair imzalanmış ikinci çox əhəmiyyətli sənəddir və hər iki dövlətin milli maraqlarına uyğundur". Millət vəkili qeyd edib ki, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır: "Azərbaycan qazının Macarıstana çatdırılması istiqamətində də əsaslı işlər görülmüşdü. Səfər zamanı dövlətimizin rəhbəri bildirmişdir ki, "vaxtilə tarixə qovuşmuş sayılan NABUCCO layihəsini biz indi canlandırmışıq. Artıq intekomektorlar vasitəsilə Azərbaycan qazı Bolqarıstana, oradan sonra Ruminiyaya, ondan sonra Macarıstana və Macarıstandan sonra digər Avropa ölkələrinə çatdırılacaqdır". Göründüyü kimi Macarıstan həm də Azərbaycan qazını digər Avropa ölkələrinə tranzit edən bir ölkə kimi fəaliyyət göstərəcək ki, bu da iqtisadi baxımdan çox əhəmiyyətlidir. Digər tərəfdən, Azərbaycan yaşıl enerjisini Avropaya çatdırılmasında Macarıstanın imkanları böyükdür və bu istiqamətdə də vacib layihələr hazırlanmışdır. Azərbaycan enerji məsələləri ilə bərabər nəqliyyat, təhsil, mina təmizləmə sahəsində də Macarıstanla əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verir.

> "
>
> *Azərbaycan Macarıstan münasibətləri dostluğa, qardaşlığa, dövlətlərin və xalqların firavanlığına, inkişafına əsaslanır*

Artıq dəmir yolu vasitəsilə Macarıstandan Azərbaycana, Azərbaycandan Macarıstana yüklərin ötürülməsinə başlanılmışdır. Bildirildiyi kimi təkcə keçən il tranzit yüklərinin həcmi 75 faiz artmışdır. İki yüz Azərbaycan gənci Macarıstan hökumətinin dəstəyi ilə Macarıstanda oxuyur. Mina təmizləmə sahəsində Macarıstan təcrübəsindən istifadə edilir və gələcək əməkdaşlıq üçün yaxşı nümunələr vardır. Macar şirkətlərinin işğaldan azad edilmiş Qarabağ və Zəngəzur torpaqlarında fəaliyyəti üçün zəmanət var və səfər zamanı bu məsələlər barədə ətraflı söhbətlər aparılmışdır. İmzalanmış Bəyannamələr, həyata keçirilən çox mühüm layihələr, qarşıya qoyulan yeni vəzifələr deməyə imkan verir ki, Azərbaycan - Macarıstan əlaqələri artıq strateji tərəfdaşlığa çevrilmişdir və hər iki dövlət bu tərəfdaşlıqdan ölkələrin inkişafı üçün faydalanacaqlar".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı ekspert Xalid Kərimli bildirib ki, Macarıstan şirkətləri Azərbaycanda işləməkdə maraqlıdırlar:** "Macarıstan Azərbaycanın dost ölkələrindən biridir. Təqdirəlayiqdir ki, Macarıstan, həmçinin Türk Dövlətləri Təşkilatının üzvüdür. Macarıstan şirkətləri Azərbaycanda, xüsusilə enerji sektorunda yaxından iştirak edir, hətta ölkəmizə milyard dollardan çox investisiya qoyub. Azərbaycanla Macarıstan arasında yaxşı münasibətlər mövcud olsa da, ticarət əlaqələri potensialın aşağısındadır. Bunun da əsas səbəbi Macarıstanın Avropanın kontinental hissəsində, dənizdən kənarda yerləşdiyi üçün və Azərbaycanın okeanlara çıxışı olmadığından logistika məsələlərinin çətin həll olunması ilə bağlıdır. Buna baxmayaraq, bu göstərici son dövrlər artmaqdadır. Təbii ki, bizim Macarıstanla digər siyasi əlaqələrimiz də mövcuddur, qeyri-iqtisadi əlaqələrimiz daha yaxşı vəziyyətdədir. Bu da iqtisadi və ticarət əlaqələrini yaxşılaşdırmağa imkan verir". Ekspert vurğulayıb ki, əlaqələrin inkişaf potensialı əsas iki istiqamət üzrədir: "Birincisi, Macarıstan Cənub Qaz Dəhlizindən qaz almaqda maraqlıdır, Azərbaycan da bu istiqamətdə Macarıstana qaz satmaqda xüsusi maraq göstərir. Bu, Azərbaycanın satış bazarının diversifikasiyası deməkdir. Həmçinin Azərbaycan bir neçə ildə qaz satışının həcmini artırmağı planlaşdırır. Avropaya qaz ixracının 2027-ci ilə qədər 32 milyard kubmetrə qədər artırılması gözlənilir və bu istiqamətdə Macarıstanla əməkdaşlıq mümkündür. İkinci mühüm bir istiqamət Prezident İlham Əliyevin Rumıniyaya səfəri çərçivəsində dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında" Sazişin imzalanmasıdır. Sazişin mühüm nəticəsi olaraq, bərpaolunan enerji mənbələri üzrə istehsal ediləcək elektrik enerjisinin Gürcüstan vasitəsilə Qara dəniz sualtı kabeli ilə Rumıniya və Macarıstana, həmçinin digər Avropa ölkələrinə ötürülməsi üçün infrastruktur imkanlarının yaradılması nəzərdə tutulub. Bu Saziş əməkdaşlığın geniş potensialını yaradır.

Hazırda bu layihə üzərində iqtisadi-texniki dəyərləndirmə aparılır. Buradan da müsbət qərarın çıxması gözlənilir ki, Azərbaycan bu xətt vasitəsilə Avropaya 4 qiqavatlıq külək və ya Günəş enerjisi ixrac etsin. Bu, Azərbaycana Macarıstanın enerji bazarına daxil olmağa imkan verir. Həmçinin bərpaolunan enerji mənbələri əsasında istehsal olunan elektrik enerjisinin Avropa bazarına, o cümlədən Macarıstana ötürülməsinə gətirib çıxaracaq. Azərbaycan əsas gücünü bu istiqamətə yönəldib. Dövlətimiz planlaşdırır ki, yaxın gələcəkdə alternativ enerji mənbələri əsasında elektrik enerjisinin istehsalını ciddi şəkildə genişləndirsin. Bunun da əsas bazarı kimi Avropanı, o cümlədən Macarıstanı görür. Bu istiqamətdə əməkdaşlığın geniş potensialı mövcuddur".

✍ **Sevinc**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurası katibinin birinci müavinini vəzifəsindən azad edib. Bu barədə Rusiya dövlət başçısı bu gün sərəncam imzalayıb. Prezidentin sərəncamı ilə Yuri Averyanov Təhlükəsizlik Şurası katibinin birinci müavini vəzifəsindən azad edilib. Averyanov bu vəzifəni 2013-cü ildən tuturdu.

■ "Avroviziya 2023" mahnı müsabiqəsinin yarımfinalının püşkatma mərasimi keçirilib. Nəticələrə əsasən, ölkəmiz mayın 9-da birinci yarımfinalın ikinci hissəsində çıxış edəcək. Azərbaycan birinci yarımfinalda Xorvatiya, İrlandiya, Latviya, Malta, Norveç, Portuqaliya, Serbiya, Çexiya, Finlandiya, İsrail, Moldova, Niderland, İsveç, İsveçrə ilə yarışacaq.

■ 1948-ci ildə Londonda keçirilən Yay Olimpiya Oyunlarının iştirakçısı, uruqvaylı Feliks Sienra 107 yaşında vəfat edib. Qeyd edək ki, Sienra yelkən idmanında yarışıb.1948-ci il Oyunlarında o, altıncı olub. Keçmiş ölmənçi Olimpiya Oyunlarının ən yaşlı iştirakçısı idi.



■ Dövlət Miqrasiya Xidmətinə mətbuat katibi təyin olunub. Bu vəzifə Natəvan Bayramovaya həvalə olunub.Natəvan Bayramova 2019-cu ildən 2022-ci ilin dekabr ayınadək "Azərbaycan Dəmir Yolları" QSC-də Mətbuat katibliyi şöbəsinin rəisi vəzifəsində çalışıb.

■ Azərbaycan Mərkəzi Bankı bu il inflyasiyanın 8% civarında olacağını proqnozlaşdırıb. "Ümumilikdə illik inflyasiya azalmaya meyil göstərsə də onun proqnozlaşdırılan səviyyəsi hədəf göstəricisini üstələməkdə davam edir. Yenilənmiş proqnozlara görə, baza ssenari üzrə fərziyyələr sabit qalarsa 2023-cü ildə illik inflyasiyanın 8% ətrafında olacağı gözlənilir" - AMB-nin açıqlamasında qeyd edilib.

■ Mövcud kredit şərtləri fermerlərin böyük əksəriyyəti üçün müxtəlif səbəblərə görə əlverişli deyil. Bunu kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib. Onun sözlərinə görə, aqrar-emal sahələrinə ayrılan kreditlərin əsas hissəsini dövlət büdcəsi hesabına verilən güzəştli kreditlər təşkil edir ki, bu da əsas etibarilə investisiya təyinatlı məqsədlərə yönəldilir.



■ Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti 2023-cü ildə uçot dərəcəsilə bağlı ilk qərarını açıqlayıb. Faiz dərəcəsi 0.25 faiz bəndi artırılaraq 8.5%-ə, faiz dəhlizinin aşağı həddi 0.5 faiz bəndi artırılaraq 6.75%-ə, faiz dəhlizinin yuxarı həddi isə 0.25 faiz bəndi artırılaraq 9.5%-ə qaldırılıb. Bu qərar daxili və xarici mühitdə inflyasiyaya artırıcı və azaldıcı təsir göstərən amillərin dinamikası nəzərə alınmaqla verilib.

■ ABŞ hökuməti Ukraynaya 2.2 milyard dollar dəyərində hərbi yardım hazırlayır. Bu barədə "Röyters" ABŞ administrasiyasındakı mənbəyə istinadla məlumat yayıb. Hərbi yardım paketinə bu dəfə uzaq mənzilli raketlər də daxil ediləcək. Agentlik bildirib ki, söhbət 150 km mənzilli GLSDB (Ground Launched Small Diameter Bomb) raketlərindən gedir.

◂ əvvəli 1-ci səhifədə

# İranın casus şəbəkələri

Maraq doğuran xüsusi məqamlardan biri də o idi ki, İranda bir dənə də olsun Azərbaycanı təbliğ edən hansısa informasiya resursuna rast gəlinmir, əksinə, əleyhimizə fəaliyyət göstərən, Azərbaycanın suverenliyini təhdid edənlərə efir verən mətbuat orqanlarının fəaliyyəti xüsusi himayə edilir, İranın Azərbaycana qarşı dövlət terroru bu "media" vasitəsilə xüsusi plan əsasında ardıcıl reallaşdırılırdı. Bunun əksinə olaraq Azərbaycanda isə İranın maraqlarını müdafiə edən informasiya saytları, internet televiziyaları fəaliyyət göstərirdi.

Ölkənin milli təhlükəsizlik strategiyasında informasiya təhlükəsizliyinin xüsusi əhəmiyyət daşıdığını nəzərə alsaq, DİN tərəfindən iranpərəst "media" quruluşlarına qarşı əməliyyatın nə dərəcədə zəruri və vaxtında atılmış addım olduğunu görə bilərik. Əməliyyatın detallarına nəzər saldıqda bu təhlükənin miqyası daha aydın görünür.

**Xatırladaq ki, yanvarın 31-də Bakıda İranın casus şəbəkəsinə qarşı xüsusi əməliyyat keçirilib. DİN tərəfindən əməliyyat keçirilən məkanlar arasında "SalamNews" informasiya agentliyi və "İnteraz" da var.** Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilən xüsusi əməliyyat tədbirləri nəticəsində Bakıda və respublikanın digər bölgələrində 7 nəfər - A.T.Kərimov, E.A.Rəhimov, İ.Ə.Ələkbərov, M.N.Cəfərov, H.H.Cabbarlı, F.S.Əbdülov və A.Ə.Cümşüdov şübhəli şəxs qismində tutulublar.

**"İnterAz" telekanalı 2002-ci ildə yaradılıb və 2007-ci ildə Rusiya Federal Vergi Xidmətinin Rayonlararası müfəttişliyində qeydiyyata alınıb. Əvvəllər baş ofisi Moskvada yerləşən kanalın təsisçisi tanınmış jurnalist Saleh Xudiyev olub.**

2016-cı ildə telekanalı İranın Qum şəhərində və Suriyada dini təhsil almış "Hacı Mətləb" kimi tanınan Mətləb Bağırov alıb. Hazırda kanalın baş ofisi Türkiyəyə keçirilib və "Türksat" peyki üzərindən yayımı təşkil olunub. Telekanalda İranın rəsmi şəxslərinin açıqlamaları, bu ölkənin maraqlarına xidmət edən məlumatlar çoxluq təşkil edir. Əvvəlki dövrdə telekanalda hazırda "Nardaran hadisələri"nə görə həbsdə olan Hacı Taleh Bağırzadə, Hacı Zülfüqar Mikayılzadə və İranla yaxınlığı ilə seçilən digər dindarlar geniş reklam olunub. Kanalın sahibi Mətləb Bağırov əslən Cəlilabad rayonundandır. Onun hətta İran, Rusiya və Azərbaycanda biznes obyektlərinin olduğu bildirilir.



**"SalamNews" İnformasiya Agentliyi fəaliyyətə 2010-cu ilin mart ayının 1-dən başlayıb. İnformasiya Agentliyinin təsisçisi "İnterAz" TV-nin sahibi Hacı Mətləb Bağırovdur.** Agentliyin Bakı ofisi "İnterAz" TV-nin Bakı nümayəndəliyi ilə eyni ünvanda, Yasamal rayonu ərazisində yerləşir. "SalamNews" İA-nın 2017-ci ildə farsdili versiyası hazırlansa da, sonradan bu layihə qeyri-müəyyən səbəblərdən təxirə salınıb. Hazırda sayt Azərbaycan və rus dillərində fəaliyyət göstərir. "SalamNews" İA əvvəlki dövrdə geniş iranyönümlü dini təbliğat aparsada, hazırda İranın rəsmi şəxslərinin, dindarlarının müxtəlif açıqlamalarını yayımlayır, dini maarifləndirmə xarakterli materiallar verir.

Göründüyü kimi, Tehrandakı Səfirliyimizə düzənlənən mənfur terror hücumundan sonra Azərbaycan qəti şəkildə cənubdan gələ biləcək həm daxili, həm də xarici təhlükəni zərərsizləşdirməkdə qərarlıdır. Həyata keçirilən əməliyyatlar molla rejimi, SEPAH kimi terroru dəstəkləyən, onu maliyyələşdirənlərə də açıq mesajdır: Azərbaycan istənilən təxribatın qarşısını almağa, təhdidləri aradan qaldırmağa tam qadirdir.

Bu məsələdə rəsmi Bakının müttəfiqləri Tehranın həyata keçirtdiyi "regional siyasətin" qurbanlarına çevrilmiş yerlə yeksan olmuş, adı var-özü yox ölkələr deyil. Bizim müttəfiqlərimiz Türkiyə, İsrail və digər inkişaf etmiş, dünya siyasətinə yön verən ölkələrdir. Bu səbəbdən, Tehran rejimi ərazisinin böyüklüyünə arxayın olub Azərbaycanla təhdid dilində danışmamalı, rəsmi Bakının çağırışlarına adekvat cavab verməlidir. Əks təqdirdə itirən yenə də İran olacaq...

✍ **Azad Əliyev**

# Gömrük sistemində mühüm dəyişiklik

***Məlum olduğu kimi, bu yaxınlarda Prezident İlham Əliyev Milli Məclisin "Gömrük tarifi haqqında" qanununda etdiyi dəyişiklikləri təsdiqləyib. "Gömrük tarifi haqqında" qanuna əsasən, malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına daxil olan müraciətə (bəyannaməyə) bir gün müddətində baxılması və bunun əsasında malların buraxılışı təmin olunacaq. Əgər malın buraxılışı üçün gömrük dəyərinə müvafiq düzəlişlər edilməsinə zərurət yaranırsa, gömrük orqanı bu barədə bildirişi bəyannamənin gömrük orqanına təqdim olunduğu andan 24 saat ərzində bəyannaməçiyə təqdim etməlidir.***




## İdxal

Başqa sözlə, qanuna əsasən, bəyannaməçinin malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına müraciəti daxil olduqda həmin müraciətə onun daxil olduğu vaxtdan bir gün müddətində baxılır və aşağıdakı tələblərin yerinə yetirildiyi müəyyənləşdirildikdən dərhal sonra gömrük orqanı tərəfindən malların buraxılışı həyata keçirilir:

*- gömrük orqanına təqdim edilən bəyannamə üzrə hesablanmış gömrük ödənişləri ödənilməli;*

*- gömrük orqanı tərəfindən təqdim olunmuş bildirişdəki düzəlişlərin edilməsi nəticəsində yarana biləcək əlavə gömrük borcuna görə bu Gömrük Məcəlləsində nəzərdə tutulmuş üsullardan istifadə etməklə təminat verilməli;*

*- bəyan olunmuş malların buraxılışının həyata keçirilməsi üçün bu Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş digər tələblər yerinə yetirilməlidir.*

Qeyd edək ki, Gömrük Məcəlləsinin 221-ci maddəsinə (Gömrük dəyərinə düzəlişlərin edilməsi) əsasən, hazırda apardıqları yoxlama, gömrük auditi və ya araşdırma nəticəsində dəyərləndirmənin qanuna uyğun olmaması, yaxud digər səbəblərdən düzgün olmadığı barədə qənaətə gəldikdə, gömrük orqanının vəzifəli şəxsi gömrük dəyərinə həmin qanunun tələbləri nəzərə alınmaqla müvafiq düzəlişlər edilməsi və onların əsaslandırılması barədə şəxsə yazılı bildiriş təqdim edir. Artıq tək yazılı deyil, həm də elektron bildiriş təqdim ediləcək. Eyni zamanda buraxılışı həyata keçirilməmiş malların gömrük dəyərinə müvafiq düzəlişlər edilməsinə dair bildiriş həmin mallarla bağlı gömrük bəyannaməsinin gömrük orqanına təqdim olunduğu andan ən geci 24 saat müddətində bəyannaməçiyə təqdim edilməlidir. Bəyannaməçinin müraciəti əsasında malların buraxılışının həyata keçirilməsi üçün tələb olunan təminatın məbləği həmin bəyannaməçi tərəfindən gömrük orqanına təqdim edilən bəyannamədə hesablanmış və ödənilmiş gömrük ödənişləri nəzərə alınmaqla, gömrük orqanı tərəfindən təqdim edilmiş bildirişdəki düzəlişlər nəticəsində yarana biləcək əlavə gömrük borcunun ən yüksək səviyyəsində müəyyənləşdiriləcək.

■ **Yeni dəyişiklikləri qəzetimizə şərh edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, ölkəmizə idxal edilən malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına daxil olan müraciətə (bəyannaməyə) bir gün müddətində baxılması idxal olunan məhsulların qiymətlərinin ucuzlaşmasına səbəb ola bilər:**

"Gömrük Məcəlləsinə edilən dəyişikliklərin əsas istiqamətlərindən biri idxal edilən məhsulların gömrük dəyərinin daha qısa müddətdə müəyyənləşdirilməsindən ibarətdir. Əvvəlki dövrlərdə malların gömrük dəyərinin müəyyənləşdirilməsi bir neçə gün çəkirdi və nəticədə sahibkarlar məhsul idxal edən zaman bir neçə gün gömrük məntəqələrində qalmaq məcburiyyətində qalırdılar. Bu isə öz növbəsində əlavə xərclərin yaranmasına səbəb olurdu, bəzi hallarda isə qida məhsulların keyfiyyətinə təsir göstərirdi. Gömrük Məcəlləsinə dəyişiklikdən sonra məhsulların gömrük dəyəri ən geci 24 saat ərzində müəyyənləşdiriləcək və sahibkarlara bununla bağlı məlumat veriləcək. Nəticədə idxalla məşğul olan sahibkarın xərclərində azalmalar olacaq.

Digər bir dəyişikliyə əsasən isə gömrük bəyannamələrinin, eləcə də bildirişlərinin yalnız kağız formada deyil, həmçinin elektron qaydada təqdim edilməsi ilə bağlıdır. Bu da sahibkarların xərclərinin azalmasına təsir edəcək. Çünki əvvəlki dövrdə kağız formada sənədin alınması üçün sahibkar gömrük orqanına getməli, növbədə dayanmalı idi, ancaq indi elektron formada həmin sənədləri ala biləcək. Bütün bu dəyişikliklər sahibkarların xərclərinin azalmasına səbəb olacaq və bu da gözlənilir ki, idxal edilən məhsulların qiymətlərinə təsir göstərsin.

Yəni xərclərin azalması həmin məhsulların qiymətlərinin də ucuzlaşmasına imkan yaradacaq. Bunun bazarda qiymətlərə necə təsir edəcəyini proqnozaşdırmaq çətindir. Təəssüf ki, bəzi hallarda sahibkarların xərcləri azalsa da onlar qiymət azalmalarına getmirlər. Ancaq bütün hallarda xərclər azaldığı üçün sahibkarlar tərəfindən idxal edilən məhsulların qiymətlərində endirimlər ola bilər".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı alim Əli Əlirazayev də hesab edir ki, yeni dəyişiklik ölkəyə idxal olunan malların ucuzlaşmasına gətirb çıxara bilər:** "Qeyd edim ki, sahibkarlar üçün gömrük xidmətindən istifadə edən zaman ən mühüm meyarlar daha az günün tələb olunması və xərclərin azlığı olur. Bu mənada yeni dəyişikliklə malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına daxil olan müraciətə bir gün müddətində baxılması və bunun əsasında malların buraxılışının nəzərdə tutulması müsbət haldır. Eyni zamanda, əgər malın buraxılışı üçün gömrük dəyərinə müvafiq düzəlişlər edilməsinə zərurət yaranırsa, gömrük orqanı bu barədə bildirişi bəyannamənin gömrük orqanına təqdim olunduğu andan 24 saat ərzində bəyannaməçiyə təqdim etməlidir. Yəni, qanuna əsasən, bəyannaməçinin malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına müraciəti daxil olduqda həmin müraciətə onun daxil olduğu vaxtdan bir gün müddətində baxılır və aşağıdakı tələblərin yerinə yetirildiyi müəyyənləşdirildikdən dərhal sonra gömrük orqanı tərəfindən malların buraxılışı həyata keçirilir. Bu o deməkdir ki, ölkəyə idxal olunan mallarla bağlı müraciətlərə qısa müddət ərzində baxılacaq. İndiyədək bu məsələ günlərlə yubanırdı. Nəticədə sahibkarlar həm əlavə xərclərlə üzləşirdilər, həm də bəzi hallarda idxal etdikləri məhsullar yararsız vəziyyətə düşürdü. Belə olan təqdiqdə bazarda məhsul qıtlığı yaşanırdı ki, bu da nəticə etibarilə qiymətlərin bahalaşmasına gətirib çıxarırdı. Yeni dəyişiklik bu kimi problemləri aradan qaldıracaq və yerli bazarda bolluq yaradacaq. Nəticədə məhsulların qiymətində əvvəlki dövrlərlə müqayisədə ucuzlaşma müşahidə ediləcək".

*Sevinc*





**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

*"Gömrük Məcəlləsinə edilən dəyişikliklərin əsas istiqamətlərindən biri idxal edilən məhsulların gömrük dəyərinin daha qısa müddətdə müəyyənləşdirilməsindən ibarətdir*

*Yeni dəyişiklik ölkəyə idxal olunan malların ucuzlaşmasına gətirb çıxara bilər*



**Əli Əlirazayev,**
iqtisadçı alim

## Müsahib



**Elxan Şahinoğlu,**
politoloq

***Regionun geosiyasi mənzərəsi İranın qonşu dövlətlərlə qarşı yönələn aqressiyası və İran-İsrail münasibətlərinin "istiləşməsi" müstəvisində daha da gərginləşib. Daxilində etiraz dalğası ilə çalxalanan İranın Azərbaycana yönəlik düşmən mövqeyi Tehranda Səfirliyimizə qarşı törədilən terror aktı ilə bird aha gün işığına çıxmış oldu. Politoloq Elxan Şahinoğlu ilə regionda İranın hansı missiyanı yürütməsinə, Azərbaycana qarşı münasibətinə dair söhbətləşdik:***

# İran qırmızı cizgiləri aşdı



***- İranda Azərbaycan Səfirliyində törədilən terror aktından hansı nəticəni çıxarmalıyıq?***

- Azərbaycanın İrandakı Səfirliyinə hücum bu ölkənin rəsmilərinin, diplomatlarının, generallarının, din xadimlərinin, deputatlarının və ekspertlərinin anti-Azərbaycan isteriyasının nəticəsidir. İrandan Azərbaycan əleyhinə daim səslənin "Sərhədlərin dəyişdirilməsi qırmızı cizgimizdir", "Zəngəzur dəhlizi olmamalıdır", "Azərbaycan İsraillə əlaqələr qurmamalıdır" açıqlamaları qonşu ölkədəki fanatik dairələri azğınlaşdırıb.

Soyuqqanlılığımızı qorumaq şərtilə Tehrandan qatil və ya qatillərin arxasındakı güclərin və sifarişçilərin araşdırılması tələb olunmalı və bu proses nəzarət altında saxlanılmalıdır. Qırmızı cizgiləri aşan İran oldu.

Ötən ilin sentyabr ayında erməni fanatiklər Azərbaycanın Fransadakı Səfirliyinə hücum edəndə və Londona dini fanatik qrup Səfirliyimizi qısa müddətə ələ keçirəndə təklif etmişdim ki, indiki həssas məqamı nəzərə alaraq münasibətlərimizin gərgin və soyuq olan dövlətlərdəki səfirliklərimizin təhlükəsizlik tədbirlərini artıraq. Buna indi də ethiyac var. İranda Səfirliyimizə hücum edən qatilin başqa ölkələrdə ardıcılları tapıla bilər. Bu mərhələyə də hazır olmalıyıq. ASALA terrorçuları və bu qruplaşma ilə ittifaqda olanlar yenidən peyda olublar. Səfirliklərə hücum və diplomatların öldürülməsi üzrə İran dünyanın "lider" dövlətlərindəndir. İrandakı fanatiklər yüzillər əvvəl Rusiya imperiyasının səfirini öldürməkdən tutmuş İslam inqilabı dövründə ABŞ Səfirliyinə hücuma və diplomatların girov götürülməsinə qədər uzun yol qət ediblər.

İranın sözdə dost və tərəfdaş adlandırdığıı müsəlman ölkəsinin Tehrandakı səfirliyinə hücumu xatırlamıram. Qatillər və onların arxasındakı güc və güclər tapılsa belə, son hadisə iki ölkə arasındakı münasibətlərdə əlavə gərginlik mənbəyi olaraq qalacaq.

***- Səfirliyə edilən hücumun məişət zəminində olması və yaxud "Erməni edib, bizlik deyil" kimi İran tərəfindən uydurulan nağılları faş edən hansı məqamlar ortadadır?***

- Terrorçuların qurduğu plana əsasən kənardan saatlardır səfirliyin ətrafındakı maşında müşahidə aparır, Azərbaycan Səfirliyi əməkdaşlarının binaya daxil olmasını gözləyir. Bu müddətdə səfirliyin qarşısındakı İran polisi şübhəli maşına yaxınlaşıb, nədən saatlardır eyni yerdə dayandığını ondan soruşmur. Planda onun yoxlanılması olmamalıdır. Terrorçu özünə arxayındır, ətrafdakı polisin ona mane olmayacağını bilir. Bu anda Azərbaycan Səfirliyində çalışan əməkdaşların maşını binanın qarşısına yaxınlaşır. Terrorçu bilir ki, sürətlə maşınını səfirlik əməkdaşlarının maşının arxasına çırpsa, səsə reaksiya verən səfirlik əməkdaşları nəyin baş verdiyini öyrənmək üçün çölə çıxacaqlar, elə də olur. Terrorçu qapının açılmasından istifadə edərək İran polisinin susqunğulu fonunda, hətta polisə əl edərək "Sənlik bir iş yoxdur" deyərcəsinə "Kalaşnikov" avtomatı ilə səfirlik binasına daxil olur. Sonrası məlumdur. Bunun nəyi "məişət zəmini"ndə baş verən basqındır? Bu, yüksək peşəkarlıqla hazırlanan terror aksiyasıdır.

***- Azərbaycan Səfirliyində törədilən terror aktından sonra İsrail-İran arasında vəziyyətin müharibə həddində gərginləşməsi hansı ssenarının davamıdır?***

- İsrail rəsmiləri İrana zərbə endirəcəklərini heç zaman istisna etməyiblər. Təl-Əviv arqumentini iki amillə izah edir. Birincisi, İran nüvə çalışmalarından əl çəkməyib. İkincisi, İran İsraili hədəf alan regional terrorçu qruplaşmaları maliyyələşdirir və silahlandırır. Bu iki amil İsrailin təhlükəsizliyi üçün ciddi təhdid mənbəyi sayılır. Bunun nəticəsi olaraq İsrail yanvarın 29-da gecə saatlarında İran ərazisinə zərbələr endirib. Bu zərbələr ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Uilyam Börnsün İsrailə səfər ərəfəsinə təsadüf edib. Böyük ehtimalla bu zərbələr ABŞ-la razılaşdırılıb. Təsadüfi deyil ki, ABŞ Prezidenti Co Bayden son açıqlamalarında İranla qarşıdurmanın baş verəcəyini istisna etməyib.

İsrail Təbriz yaxınlığındakı dron zavodunu, İsfahandakı hərbi müəssisəni və Malard şəhərindəki hərbi təchizat anbarını vurub. Tehran İsrailə qarşı cavab aksiyası həyata keçirməyə çalışacaq. İsrail İran raketlərini havada neytrallaşdıracaq. İranın birbaşa İsrailə əli çatmayacaq. Ona görə yenə maliyyələşdirdiyi və silahlandırdığı qrupları hərəkətə gətirəcək. Aydındır ki, İsrail bu hücumdan sonra təhlükəsizlik tədbirlərini daha da artıracaq. Regional qarşıdurmanın yeni mərhələsinə qədəm qoyuruq.

Kremlə yaxın ekspertlər iddia edirlər ki, İsrailin İrana zərbə endirməsini Vaşinqton təşviq edib. Misal kimi, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Uliyam Börnsün və ABŞ prezidentinin millət təhlükəsizlik üzrə müşaviri Cek Sallivanın İsrailə səfərlərini göstəriblər. Yəqin, Kremldə hesab ediblər ki, Vaşinqtonun əsas məqsədi İranın Rusiyaya pilotsuz uçuş aparatlarının ixracını durdurmaq olub. Həqiqətən İsrail İranda pilotsuz uçuş aparatları istehsal edən müəssisəyə də zərbə endirib. Bu Kremldə suallar doğurmamış deyil. İsrail İranın nüvə çalışmalarından narahatdır və normalda həmin mərkəzlər hədəf götürülməli idi. Nüvə mərkəzləri hücuma məruz qalmayıb, Rusiyanı dron və hərbi sursatla təhciz edən mərkəzlər hədəf götürülüb. Bu da Kremldə belə bir şübhə yaradıb ki, hücum ya Vaşinqtonun təlimatıyla həyata keçirilib, ya da elə hücum dronları Amerikaya məxsus olub.

*"Terrorçu qapının açılmasından istifadə edərək İran polisinin susqunğulu fonunda, hətta polisə əl edərək "Sənlik bir iş yoxdur" deyərcəsinə "Kalaşnikov" avtomatı ilə səfirlik binasına daxil olur*

*Qatillər və onların arxasındakı güc və güclər tapılsa belə, son hadisə iki ölkə arasındakı münasibətlərdə əlavə gərginlik mənbəyi olaraq qalacaq*

*Tehran İsrailə qarşı cavab aksiyası həyata keçirməyə çalışacaq*

*Tahirə Qafarlı*

## Təhlil

*Azərbaycanın Tehrandakı Səfirliyinə təşkil olunmuş terror hücumundan sonra iki ölkə arasında onsiz da enişli-yoxuşlu olan münasibətlər kökündən pisləşdi. Dediyim kimi, əslində əvvəldən də pis idi, müstəqilliyin ilk günündən İranın məhz Ermənistanla qardaşlıq etməsi, öz təbirlərincə desək, "türklər tərəfindən təcrid edilmiş erməniləri" yedirib-içirdi, yanacaqla təmin elədi və sair. Yanacaq deyəndə ki, yalnız humanitar məqsədli yox, həm də azərbaycanlı müsəlmanların üzərinə sürülən tankları da təmin etdi.*



# İran Azərbaycanla sonsuzadək düşmən qalacaq

### Şərin himayədarı

**Həmişə İranın Ermənistana qardaş dəstəyindən söz açmışıq, şəxsən özüm hər dəfə İran səfirləri ilə müsahibə zamanı İran prezidentlərinin ilk səfərini etdikləri İrəvanda Koçaryanlarla, Sarkisyanlarla, nə bilim Paşinyanlarla sarmaş-burmaş olub, öpüşüb-görüşməsinə irad tutmuşam və gözlədiyim şablon cavabı da almışam - biz bütün qonşularla dostuq.**

Əslində İranın Ermənistanla sıx münasibətlərini normal qarşılamışam. Axı dili, dini, tarixi, mədəniyyəti, canıqanı bir olan iki doğma qardaş başqa necə olmalıdır, ta durub bir-birinə güllə atmayacaqlar ki. Bəli, İran - Ermənistan qardaşlığı özünü Azərbaycan səfirliyinə təşkil olunan terror hücumu zamanı da göstərdi. Üstəlik, Tehranın mərkəzində Qarabağ ermənilərinə dəstək mitinqi keçirildi. Hə, bir tərəfdə Qarabağ ermənilərinə dəstək mitinqi, o yanda da Azərbaycan səfirliyinə silahlı terror hücumu.

Yeri gəlmişkən, Səfirliyə hücumdan çox keçməmiş İranın hərbi obyektlərindən bəziləri dronlarla vuruldu. İran əvvəl şok içində açıqlama verməyə tələsmədi, guya sadəcə bir obyektin vurulduğunu, özü də hücum edən üç drondan ikisinin məhv edildiyini, birinin isə obyektə yüngülvari xəsarət vurduğunu bildirdi. Əslində isə vurulan obyektlərin sayı bir deyildi. Bəs kim vurdu - İsrail. Heç gizlətmədilər də, açıq-aşkar dedilər ki, əcəb etmişik, terrora xeyri dəyən bütün təsisləri məhv edəcəyik.

Bu arada, İsfahanda vurulan zavodda məhz Rusiyanın vasitəsilə Ukrayna şəhərlərində insanları qətlə yetirmək üçün istifadə olunan "Şahed" dronları istehsal edilir. Yəqin bu səbəbdəndir ki, İranda bir çoxları zavoda hücumda "Uykrayna barmağını" axtarmaq istədi. Görürsünüz, əzilən, torpaqları rus ordusu tərəfindən viran edilən Ukraynaya dəstək verməkdənsə, ölümsaçan dronları işğalçıya ötürən İran hər zamankı kimi, şərin yanında dayanıb, necə ki, 30 ildir işğalçının - Ermənistanın yemək-içməyi, pulu-parası olub.

### Moskvadan qorxub...

**Yenə qayıdaq İranın konkret Azərbaycana münasibətinə. "Thenateonal"ın analisti Aleks Vatanka deyir ki, Cənubi Qafqazın dəyişən geosiyasəti sürətlə yeni qlobal alovlanma nöqtəsi kimi ortaya çıxır.**

Bildirir ki, ötən həftə Azərbaycanın Tehrandakı Səfirliyinə hücumun İranla Bakı arasında gərginliyin artması ilə bağlı olub-olmadığını deyə bilməsə də, hər halda iki ölkənin prezidentləri söz savaşını sakitləşdirməyə üstünlük veriblər. Bazar günü İsfahan və Tehranda baş verən dron hücumları isə daha çox narahatlıq doğurur. Bununla belə, hər iki ölkə münasibətləri konstruktiv yola salmaq üçün daha çox işlər görməsə, münasibətlərdəki eniş spiralını dayandırmaq çətin olacaq.

"Azərbaycanda 10 milyondan çox, İranda isə təxminən, 25 milyon azərbaycanlı yaşayır. Azərbaycan xalqı XIX əsrdə Fars imperiyasının Qafqaz ərazilərini ruslara güzəştə getməsindən sonra ikiyə bölündü. Amma 1991-ci ildə Sovet İttifaqı dağılanda dünya xəritəsində Azərbaycan Respublikası adlı bir dövlət yarandı.

Çox maraqlıdır ki, dünyaya şiə idealogiyası ixrac edən İran bu siyasətini şimaldakı "şiə qardaşlarına" ixrac edə bilmədi" deyən politoloq qeyd edib ki, bunun iki sadə səbəbi vardı. Birincisi, əsrlər boyu rus və sovet hakimiyyəti altında qalmış azərbaycanlılar Tehranın mürtəce islamçı ideologiyasını ümumiyyətlə qəbul etmədilər. İkincisi, daha vacib səbəb isə Moskvanın 1990-cı illərin ortalarından etibarən İranın keçmiş Sovet İttifaqının cənub ərazilərində heç bir təcavüzkar cəhdinə xoş baxmadığını açıq şəkildə bildirməsi idi. Bu səbəbdən də artıq Qərbdən uzaqlaşmış İran Moskvanı da özündən küsdürməmək yolunu seçdi.

### Terrora aparan yol

**A.Vatanka deyir ki, 2020-ci ildə Azərbaycanın uzun müddətdir işğal olunmuş torpaqlarını geri qaytarmaq üçün başlatdığı müharibədən sonra vəziyyət tamamilə dəyişdi.**

Ən pisi o idi ki, Tehran Azərbaycanın hərbi zəfərini görmək istəmədi. Bu səbəbdən də müharibənin daha geniş geosiyasi nəticələri qarşısında kor qaldı. Hansı ki, Bakının Ermənistan üzərində hərbi qələbə qazanmasında "İranın iki regional rəqibi olan Türkiyə və İsrail böyük köməklik göstərdi".

"Tehran nəinki özünün şimal sərhədində daha dərin İsrail və Türkiyə izi ilə oyandı, həm də Rusiyanın Türkiyə və İsraili Cənubi Qafqazdan kənarda saxlaya bilməməsi Tehran üçün daha böyük şok oldu. Moskvanın bölgədəki nüfuzunun azaldığını və Rusiyanın Ukraynadakı hərbi missiyasına diqqətini artırdıqdan sonra tezliklə geri dönməyəcəyini anlayan İran hökuməti bölgədə nüfuzunu bərpa etmək üçün yollar axtarmağa başladı. Bir sözlə, Tehran Bakının növbəti addımını formalaşdırmaq üçün kök və yapışqan strategiyasını seçdi.

Hansı ki, iki ölkə diqqəti iqtisadi və hətta hərbi əməkdaşlığın genişləndirilməsinə yönəldə bilərdi" deyən Vatanka bildirib ki, İran Bakının Azərbaycandan Türkiyə ilə həmsərhəd olan Naxçıvan eksklavına qədər quru dəhlizi - Zəngəzuru yaratmaq üçün əsas səylərinə qarşı çıxdı. Çünki Tehrana elə gəlirdi ki, Türkiyənin dəstəyini alan Azərbaycan bu dəhliz vasitəsilə İranın Ermənistanla əlaqəsini kəsmək istəyir.

"İran rəsmiləri iddia edir ki, israillilər İrana qarşı təxribat əməliyyatları keçirmək üçün Azərbaycan ərazisindən istifadə etmək istəyirlər. Hətta Tehranın Bakıdakı səfiri bu yaxınlarda xəbərdarlıq edib ki, ölkəsi Azərbaycanı İran-İsrail rəqabəti üçün döyüş meydanına çevirmək istəmir, lakin bundan sonra baş verənlərə görə məsuliyyət daşımayacaqlar. Tehranın hədə-qorxusuna qarşı Azərbaycan yanvarın 11-də İsrailə ilk səfirini təyin etdi. İranlılar bu qərarı belə yozurlar ki, rəsmi Bakı İranla regional rəqabətdə son nəticədə İsrailin tərəfini seçib", - cənab Vatanka deyir.

Bu yerdə qeyd edək ki, Aleks Vatankanın da gəldiyi nəticə Azərbaycanın Tehrandakı Səfirliyinə qarşı terror hücumuna gedən yolu göstərir. Yəni yanvarın 11-də Azərbaycan İsrailə səfiri təyin edib və bununla da fars rejiminin gözləntiləri puç olub və nəticədə səfirliyə qarşı məlum terror aktı təşkil edilməklə qisas almaq istəyiblər... Müsahib qeyd edir ki, İran çox uzun müddət Cənubi Qafqazda Rusiyanın maraqlarına üstünlük verməyi seçdi və Moskvanın bu regionda gücünü itirdiyini görə bilmədi. Çünki son 10-15 ildir Tehranın başı Suriya, Livan, İraq və Yəmən kimi ərəb ölkələrinin daxili işlərinə müdaxiləyə qarışıb.

### Yanlış siyasət

**Türkiyənin keçmiş daxili işlər naziri Sadəddin Tantan da "İndependent"ə açıqlamasında Azərbaycanın sakit hərəkət etməli olduğunu vurğulayıb. "100-cü ildən sonra Britaniya planları yenidən səhnəyə çıxdıqda, böyük kəşfiyyat müharibələri baş verir.**

Mən Azərbaycanın Tehran Səfirliyinə edilən terror hücumunu bu müharibələrin bir hissəsi hesab edirəm. Təəssüf ki, İranın bəzi siyasətləri imperiya güclərinin bölgədə müxtəlif ssenarilər həyata keçirməsini asanlaşdırır. Ona görə də İran bu siyasətlərindən əl çəkməli və xüsusilə əhalisinin az qala yarısını təşkil edən Azərbaycan türklərinin adi təməl hüquqlarını tanımalıdır. Onların öz ana dillərinə - türk dilinə böyük ehtiyacları var" deyən cənab Tantan bildirib ki, İran bu məsələdə Türkiyə ilə də əməkdaşlığı gücləndirməlidir.

Keçmiş səfir deyib ki, Azərbaycan Orta Asiyadakı türk ölkələrindən Türkiyəyə uzanan yolda ən önəmli ölkəyə çevrilməkdədir. "Bunun üçün onun texnologiyası və təhlükəsizlik infrastrukturu sağlam olmalıdır. Həmçinin Türkiyə və Azərbaycanın birgə kəşfiyyat təşkilatı yaratması lazımdır. Rusiyanın Qafqazda 200 illik siyasətindən əl çəkməməsi regionu çətin vəziyyətə salan digər amil olduğundan, rus ordusunun Azərbaycan torpaqlarını tərk etməsi də bölgədəki gərginliyi azaldacaq", - S.Tantan deyir.

Sonda bu qənaətimizi bölüşək ki, İran tarix boyun türk millətinə düşmənçilik etdiyi kimi, bu gün də eyni siyasəti yürüdür. Xüsusilə də Azərbaycanın müstəqilliyini həzm edə, yüksəlişini qəbul edə bilmir. İranda hər kəs yaxşı bilir ki, Arazın şimal sahilindəki Azərbaycan dövlətinin güclənməsi güneydəki on milyonlarla Azərbaycan türkünü də oyadacaq və bu oyanışı heç bir şiə mollasının uydurduğu nağıllar və ya qan daman qılıncı dayandıra bilməyəcək. Bu səbəbdən də İran nifrət və qəzəb püskürür ki, Azərbaycan səfirliyinə edilən hücum da bunun nəticəsidir. Odur ki, Azərbaycan və ümumiyyətlə, türk dünyası düşmənini tanımalı və ona uyğun mövqe tutmalıdır.

✍ *Vüsal Tağıbəyli*

# Separatçı rejimin "iqtidar" davası

◂ əvvəli 2-ci səhifədə

Maurizio Geri bildirir ki, Avropa İttifaqının da bölgədəki sülh prosesində fəal iştirak etdiyi bir vaxtda, Kremlin proseslərdən kənarda qalmamaqda birbaşa marağı var. "Hazırda Rusiya hərbçiləri Qarabağı Ermənistanla birləşdirən "Laçın dəhlizi"nə nəzarət edirlər, həmin yol isə Vardanyanın Qarabağdakı faydalı qazıntıların ixracı üçün istifadə etdiyi marşrutdur və Moskvanın sülhməramlıları buna mane olmur".

Məqalə müəllifinə görə, Qarabağda qarət edilən qızılın Laçın yolu ilə daşınması çətin ki, sülh prosesini təkbaşına batırsın, lakin Vardanyanın hərəkətləri təhlükəli presedent yaradır. Müəllif bildirir ki, Qarabağdakı filiz yataqlarının təkrar açılmasına etiraz edən azərbaycanlı fəalların dekabrda başladığı aksiya Laçın dəhlizinin demək olar bağlanması ilə nəticələndi.

Maurizio Gerinin qənaətinə görə, Rusiyanın başı indi Ukraynaya qarışıqdır və o, əlinə imkan düşəndə - öz şərtlərinin daha çox tətbiq edə biləcəyi bir siya Qarabağdakı sülməramlıları vasitəsilə qondarma rejimin "növbədənkənar seçkilər" keçirməsinə zəmanət versin və ya onunla Ruben Vardanyan arasında seçim etsin. "Çünki o, əmindir ki, Vardanyan "dövlət naziri vəzifəsi"ndə qaldıqca, azərbaycanlılar yolu açmayacaq", - nəşrin məqaləsində qeyd edilir.

"Hraparak" yazır ki, hazırda Arutyunyanla Vardanyan arasında münasibətlər yenidən pisləşib. "Məsələ burasındadır ki, onlar əvvəldən növbəti "seçkilərə" qədər "Artsax"ın iqtisadi cəhətdən möhkəmlənməsini birgə həyata keçirməyə razılaşsalar da, Ruben Vardanyanın kəskin bəyanatları və addımları Arayik Arutyunyan üçün başağrısına çevrildi". Məqalədə bildirlir ki, Arayik Arutyunyan 44 günlük müharibədən sonra Azərbaycan tərəfilə barışıq və əməkdaşlıq yolunu tutmuşdu, Vardanyan isə "dövlət naziri" olandan sonra bu siyasətin əleyhinə çıxdı.

"Hraparak" qeyd edir ki, Qarabağ separatçılarının gələcəyi ilə bağlı tərəflərin mövqeləri fərqlidir. "Arayik Arutyunyan Azər-



vaxtda Qarabağ münaqişəsini yenidən alovlandırmağa çalışacaq. "Bununla da Moskva Cənubi Qafqazda beynəlxalq arbitr kimi mövqeyini qoruyub saxlaya bilər". Müəllif bildirir ki, əgər beynəlxalq ictimaiyyət bunun qarşısını almaq istəyirsə, Azərbaycan və Ermənistan arasında substantiv sülh danışıqlarını mümkün qədər tez bərpa etməlidir. "Bunu Azərbaycanın Qarabağ ermənilərinin hüquqlarına, təhlükəsizliyinə və irsinə təminat verəcəyinə dair sözünün üstündə durması, eyni zamanda Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşacağına dair verdiyi sözə açıq şəkildə əməl etməsi ilə edə bilər. Amma nə olursa olsun, Qarabağda yerli əhali başa düşməlidir ki, burada sülh üçün mübarizə aparan iki tərəf var və onların arasında Rusiya ilə Vardanyan yoxdur".

Ermənistan mətbuatı da növbəti dəfə Qarabağın dağlıq hissəsində məskunlaşan separatçılar arasındakı gərginlikdən yazıb. "Hraparak" qəzeti Qarabağdakı separatçıların başçısı Arayik Arutyunyanla qondarma "dövlət naziri" Ruben Vardanyan arasındakı münasibətlərdəki gərginliyin davam etdiyini bildirir.

"Əldə etdiyimiz məlumata görə, vəziyyət o qədər ciddiləşib ki, Araik Arutyunyan dünən Rusiya sülhməramlılarının vasitəsilə Moskvaya gedib. Səfərin məqsədi siyasi vəziyyətin həlli yollarını tapmaqdır", - deyə "Hraparak" yazır. Məlumatda o da qeyd olunur ki, A.Arutyunyan Moskvaya təklif edəcək ki, Rusiya baycanla danışıq aparmağın, görüşməyin tərəfdarıdır, Vardanyan isə qəti şəkildə bunun əleyhinədir. Vardanyan deyir ki, müqavimət göstərməliyik, bir santimetr də yer verməməliyik, sülhməramlılar təhlükəsizliyi təmin edir". Məqalədə bildirilir ki, son günlər Arutyunyan və Vardanyan Qarabağ ermənilərilə ayrı-ayrılıqda görüşlər keçirməkdədirlər. Tərəflərin sanki seçki kampaniyasına başladıqları görüntüsü yaranıb. Arutyunyanın bu görüşlərdə Azərbaycanla danışmağa getmək üçün erməni əhalidən dəstək istədiyi bildirilir. "Biz azərbaycanlılarla görüşlər keçirməliyik, təbii ki, rusların vasitəçiliyi ilə", - deyə Arutyunyan mülki ermənilərə bildirib. "Arutyunyan bilmək istəyir ki, sabah azərbaycanlılarla görüşsə, Qarabağ erməniləri onun satqın olduğunu deməyəcəklər ki...", - deyə "Hraparak" qeyd edib.

Göründüyü kimi, tək bir aksiya ilə Azərbaycan Xankəndidəki separatçı rejim düyününü həll etməyə çox yaxınlaşıb. Artıq istədikləri "beynəlxalq dəstəyi" də ala bilməyən separatçı rejim rəhbərliyi düşdükləri bu vəziyyətdən çıxış yolunu axtarır. Çıxış yolu isə bəllidir. Azərbaycan vətəndaşlığını qəbul edərək digər sakinlərimiz kimi qanunlarımızın verdiyi hüquq və azadlıqlar çərçivəsində suveren Azərbaycan ərazisində yaşamağa razılaşmaq. Bu Arutyunyan üçün xilas, Vardanyan üçün isə başlamayan siyasi karyerasının sonu deməkdir. İndi isə seçim sadə ermənilərindir.

✍ *Azad Əliyev*





**■ Azərbaycan Mərkəzi Bankı (AMB) Aqrar Sığorta Sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayaraq həm Aqrar Sığorta Fonduna, həm də Kənd Təsərrüfatı Nazirliyinə təqdim edib.**

Bunu AMB-nin Baş direktoru Toğrul Əliyev "Aqrobiznesin inkişafı forumu"nda çıxışı zamanı bildirib. "Eyni zamanda, tanınmış beynəlxalq konsaltinq şirkəti olan "Makkenzi" şirkəti ilə Mərkəzi Bankın hal-hazırda davam edən layihəsi mövcuddur. Bu layihədə bank sisteminin inkişafı strategiyasına həsr olunmuş, bu çərçivədə aqrar sahənin maliyyələşdirilməsi üzrə mexanizmlərin yaradılması xüsusi yer alıb. Sözügedən strategiya bu ilin birinci yarısında hazır olacaq", - deyə Baş direktor əlavə edib.



**■ Fevralın 1-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovla İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantın təşəbbüsü ilə telefon danışığı olub.**

Azərbaycan-İsrail əlaqələrinin dostluq və qarşılıqlı etimada əsaslandığını vurğulayan Y.Qallant ölkələrimiz arasında mövcud münasibətlərdən məmnunluğunu ifadə edib. General-polkovnik Z.Həsənov Y.Qallantı İsrail Dövlətinin müdafiə naziri təyin olunması münasibətilə təbrik edərək ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın genişlənəcəyinə əminliyini bildirib. Danışıq zamanı tərəflər regional təhlükəsizlik məsələlərini, eləcə də ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın perspektivlərini müzakirə ediblər.



**■ "Yanvarın 27-si Bakı vaxtilə səhər saat 8:30 radələrində Tehrandakı Səfirliyimizə terror hücumu olub". Bunu spiker Sahibə Qafarova bildirib.**

Sahibə Qafarova deyib ki, Səfirliyin bir əməkdaşı hücumun qarşısını alarkən şəhid olub, ikisi yaralanıb: "Parlament bu qanlı terror aktını pisləyib". Spiker qeyd edib ki, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı Konfransında iştirak zamanı, o cümlədən İran parlamentinin sədri də daxil olmaqla keçirilən ikitərəfli görüşdə Tehranda səfirliyimizə qarşı törədilən terror aktı ilə bağlı müzakirə aparılıb. Sahibə Qafarova bu görüşlərdə Azərbaycanın terror aktını hərtərəfli araşdırılmasını tələb etdiyini bir daha diqqətə çatdığını vurğulayıb.



**■ 2022-ci ilin statistikasına nəzər yetirsək ölkə üzrə aqrar sahənin strukturunda bitkiçilik sektorunun payı 52.3%, heyvandarlıq sektorunun payı isə 47.7% olduğu kənd təsərrüfatı məhsullarının istehsal həcmi faktiki qiymətlərlə dəyəri 10.98 mlrd. manatdır ki, faizlə ifadə etsək 3.4% artıb və bununla da kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda yaradılan əlavə dəyərin ölkənin ÜDM-də payı 4.8% olub.**

Bunu kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova "Aqrobiznesin inkişafı forumu"nda çıxışı zamanı bildirib. "Bitkiçilik sektoru üzrə payızlıq əkin sahəsi 2.8 % artıb. Kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsullarının sığortası üzrə toplanılan sığorta haqları 2021-ci illə müqayisədə 137 % artıb.





**■ ABŞ-da polis zorakılığı səngimir. Bu dəfə daha bir dəhşət adlandırıla biləcək görüntü üzə çıxıb. Kaliforniyada lentə alınan həmin anlar dünya mətbuatının gündəminə çevrilib.**

İki ayağı olmayan Entoni Lou Junior əlindəki bıçaqla polisdən qaçmağa çalışıb. Yerdə sürünən Entoni 3 polis əməkdaşının atəşinə tutulub. Kameraya əks olunan həmin anlarda ən azı 8 atəş açıldığı görülüb.

Yerdə hərəkətsiz uzanan Antoni polislər tərəfindən qandallanıb. Digər tərəfdən hadisə yerinə gələn sağlamlıq qrupları gəncin ciyərlərindən güllə yarası aldığını və daxili qanaxma olduğunu müəyyən edib. Antoni hadisə yerində edilən müdaxilələrə baxmayaraq həyatını itirib.



**■ Rusiya Prezidenti Vladimir Putin 2022-ci il fevralın 24-də müharibənin ildönümünə təsadüf etdiyi kimi şimaldan, cənubdan və şərqdən genişmiqyaslı hücum həyata keçirməyə cəhd edə bilər, Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksey Danilov bu barədə Sky News-a bildirib.**

"Rusiya maksimum eskalasiyaya hazırlaşır", - deyən Danilov "O, bütün mümkün qüvvələri toplayır, təlimlər keçirir". Danilov bildirib ki, ən ağır döyüşlər hələ qarşıdadır və növbəti bir neçə ay müharibədə həlledici olacaq. Eyni zamanda, indi Ukrayna ordusu Qərb tərəfdaşlarından, o cümlədən Britaniyadan bir il əvvələ nisbətən daha çox dəstəyə malikdir, deyə o əlavə edib.

# Metro və avtobuslarda yeni qiymətlər

***Xəbər verdiyimiz kimi, Tarif (qiymət) Şurasının yanvarın 31-də keçirilən növbəti iclasında daşıyıcı şirkətlərin müraciətlərinə baxılıb və ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib. Müraciətlərdə sonuncu tənzimləmədən ötən müddətdə ehtiyat hissələrinin idxal qiymətinin və təmir xərclərinin artmasının sərnişindaşımada maya dəyərinə ciddi təsiri, daşıyıcı şirkətlərin maliyyə vəziyyəti, avtobus parklarının yenilənməsi və xidmətin davamlılığının təmin edilməsi ilə bağlı məsələlərin tarif tənzimlənməsinə zərurət yaratdığı bildirilir.***




## Qərar

## Tarif Şurasının qərarı nə dərəcədə əsaslıdır?

Məlumat üçün qeyd edək ki, şəhərdaxili, şəhərətrafı və qəsəbələrarası, həmçinin şəhərlərarası avtobus marşrutlarında sərnişindaşıma xidməti üzrə tariflərin yuxarı həddi və metroda sərnişindaşıma xidmətinin tarifi ilə bağlı sonuncu qərar 2018-ci ilin avqust ayında qüvvəyə minib.

Tarif (qiymət) Şurasının iclasında təklif olunan müxtəlif tarif artımı variantları nəzərdən keçirilib, dövlətin sosial siyasətinə uyğun olaraq, sosialyönümlülük nəzərə alınmaqla ən optimal variant seçilib.

Təkliflərin dəyərləndirilməsi zamanı xidmətin dayanıqlılığının təmin olunması, istehlakçı ilə xidmət göstərənin maraqlarının uzlaşdırılması, iqtisadi əlverişlilik, müştəri məmnuniyyəti, xidmət səviyyəsinin yaxşılaşdırılması kimi amillər əsas götürülüb.

Aparılan müzakirələrdən sonra fevralın 3-dən etibarən10 qəpik artırılmaqla metroda sərnişindaşıma tarifi 1 gediş üçün 40 qəpik, ölkə üzrə tarifin yuxarı həddi şəhərdaxili avtobus marşrutlarında 40 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə məsafədən asılı olaraq 0,40-1,00 manat təsdiq edilib. Bakı-Sumqayıt (Sumqayıt-Bakı) avtobus marşrutlarında tarifin 60 qəpik (əvvəlki tarif 50 qəpik), Şəhərlərarası avtobus marşrutlarında isə tarifin yuxarı həddi 1 kilometr üçün 3 qəpik (əvvəlki tarif 2,4 qəpik) səviyyəsində müəyyən olunub.

İclasda həmçinin, sosial baxımdan həssas qrupların mənafeyinin qorunması məqsədilə tariflərin diferensiallaşdırılmasının, gediş sayına və vaxt limitinə görə fərqlənən çoxpilləli tariflərin tətbiqinin, gediş haqqının nağdsız qaydada ödənilməsini təmin edən zəruri işlərin qısa müddətdə başa çatdırılmasının zəruriliyi vurğulanıb.




Məlumat üçün qeyd edək ki, Azərbaycanda indiyədək sərnişindaşıma xidməti sahəsində bir sıra işlər görülüb. Məsələn, təkcə son 7 il ərzində Azərbaycana 1466 avtobus gətirilib ki, bu da avtobus parkının 61% yenilənməsi deməkdir. Yalnız ötən il 170-i dövlət investisiyası, 85-i daşıyıcılar tərəfindən olmaqla ümumilikdə 255 ədəd avtobus gətirilib. Hazırda 177 marşrut xətti üzrə xidmət göstərilir, onlardan 40%-i şəhərdaxili, 60%-i şəhərətrafı marşrut xətləridir. 2022-ci ildə Bakı şəhərində, Bakı ətrafı qəsəbə və kəndlərdə 8 yeni müntəzəm marşrut xətti yaradılıb, bu yeni xətlər ilə gündəlik orta hesabla 23 mindən artıq sərnişin daşınır. Eyni zamanda, son 7 ildə 1215 dayanacaq məntəqəsi təşkil olunub. Yalnız 2022-ci il ərzində 4-ü smart tipli pavilyon olmaqla ümumilikdə 278 yeni avtobus dayanacaq məntəqəsi qurulub. 2022-ci ilin sonuna olan məlumata əsasən, Bakı şəhərində marşrut xətlərinin 50%-də, avtobusların isə 64%-də nağdsız ödəmə sistemi tətbiq olunub. Yeni avtobuslarla gündəlik 600 mindən çox sərnişin daşınır.

Sərnişindaşıma xidmətini həyata keçirən sürücülərin hazırlanması və ixtisasının artırılması məqsədilə 5000-dən artıq sürücüyə təlim keçirilib. Eyni zamanda, dövlət tərəfindən nəqliyyatda sərnişindaşıma sahəsinə dizel yanacağının tarif artımına görə 4,3 milyon manat, pandemiyaya və davamlı fəaliyyətə görə isə 47,6 milyon manat maliyyə yardımı göstərilib

Metro nəqliyyatında görülən işlərə gəlincə, 2021-2022-ci illərdə 2 yeni stansiya ("8 Noyabr" və "Xocasən") açılıb. Xətlərin cəmi uzunluğu 40.7 km-ə, xətlərin sayı 3-ə, stansiyaların sayı 27-yə çatdırılıb. Dövlət Proqramına görə yeraltı yollarının ümumi uzunluğu 119,1 km, stansiyalarının sayı isə 77-yə çatacaq. Son 5 ildə innovasiyalar baxımından sonuncu nəslə mənsub müasir tipli 100 vaqon, 20 qatar alınıb. Müasir infrastruktur və enerji təchizatının ən yeni standartlı 8 ədəd elektrik yarımstansiya qurulub. Yeni metro stansiyalarının tikintisinə investisiya qoyuluşundan başqa, son 4 ildə metroya ayrılan maliyyə yardımı 231 milyon manat təşkil edib.

> *Xidmətin keyfiyyətinin artırılması, avtobus parkının yenilənməsi, müasir və dayanıqlı daşımanın həyata keçirilməsi üçün tariflərə yenidən baxılması üçün Tarif Şurasına müraciət edilmişdi*

Bu mənada qeyd olunmalıdır ki, yeni tariflərin qəbulunun zərurililiyinə məhz daşıyıcı şirkətlərin müraciətləri əsasında baxılıb. Yəni bu, dövlətin deyil, bu sahədə fəaliyyət göstərən şirkətlərin təklifidir. Onlar da təkliflərini bununla əsaslandırıblar ki, sərnişindaşıma xidmətinin tarifləri ilə bağlı sonuncu qərar 2018-ci ilin avqust ayında, yəni 5 il əvvəl qüvvəyə minib. Bu illər ərzində bütün dünyada olduğu kimi, Azərbaycanda da ehtiyat hissələrinin idxal qiymətinin artması, təmir xərcləri, avtomobillər üçün yağ və digər zəruri materiallar, daşımada istifadə olunan avtobusların keyfiyyətinin yüksək olması (kondisioner və s.), yanacağın qiyməti və s. artması sərnişindaşıma xidmətinin maya dəyərinə ciddi təsir edib. Həm metroda, həm avtobuslarda mövcud tariflər sərnişin daşınmasının maya dəyərindən aşağıdır. Avtobusların müxtəlif markada və qiymətdə olması tarif tənzimlənməsində vahid yanaşmaya imkan vermir - 1 sərnişinin daşınmasının maya dəyəri ilə tarif arasında fərq, bəzi hallarda 2 dəfəyə yaxın təşkil edir. Metroda 1 sərnişinin daşınmasının maya dəyərinin 2023-cü ildə 82 qəpik olacağı gözlənilir, şəhərdaxili avtobus marşrutlarında isə amortizasiya xərci ilə birlikdə 33,5 - 57,4 qəpik arasında dəyişir. Göründüyü kimi, orta qiymət 40 qəpikdən artıqdır.

Maya dəyərinə təsir edən daha bir məqam sərnişin sayının pandemiyadan əvvəlki dövrlə müqayisədə əhəmiyyətli dərəcədə azalmasıdır. Məsələn, pandemiya dövründə metroda bir sərnişinin daşınmasının maya dəyəri 1 manat 53 qəpik (2020-ci il) və 1 manat 40 qəpik (2021) olub. Tarifin 30 qəpik olduğunu nəzərə alsaq, bu iki il ərzində metropolitenin nə qədər ziyanla işlədiyi aydın olur. İndinin özündə də sərnişindaşımada pandemiyadan əvvəlki dövrün göstəricilərinə dönmək mümkün olmayıb. Belə ki, 2022-ci il ərzində ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin sayı pandemiyadan əvvəlki dövrün cəmi 62%-ni təşkil edib.

Onu da vurğulayaq ki, tarif artımından sonra metro üzrə 20 milyon manat, avtobus nəqliyyatı ilə daşımalar üzrə isə 200 milyon manat əlavə vəsaitin yaranacağı gözlənilir. Tarif (qiymət) Şurasının iclasında təklif olunan tarif dəyişikliyi modelləri arasında sosialyönümlülük nəzərə alınıb, dövlətin sosial siyasətinə uyğun olaraq ən optimal variant seçilib, sərnişinlə xidmət göstərən şirkət arasında maraqlar balanslaşdırılıb. Yeni tariflərlə gündəlik metrodan və ya şəhərdaxili marşrutlardan istifadə edən bir vətəndaşın payına düşən aylıq artım 4-6 manat təşkil edəcək. Yeni tarifin qəbulundan sonra belə Bakıda sərnişin daşıma tarifləri əksər MDB ölkələri ilə müqayisədə ən aşağı qiymət hesab olunur. Məsələn, Bakıda metro və avtobuslarda gediş haqqı 0,40 qəpik, Moskvada 1 manat 52 qəpik, Kiyevdə 1 manat, Minskdə 0,96 qəpik, Tbilisidə 0,64 qəpik, İstanbulda 1 manat 81 qəpikdir. Avropa ölkələrində isə nəqliyyatda tariflər Azərbaycandakı göstəricilərdən dəfələrlə yüksəkdir. Yeni tarif tənzimlənməsindən sonra da ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflər əksər MDB ölkələri ilə müqayisədə Azərbaycanda aşağı səviyyədə olacaq.

■ **Bunu əhərlərarası sərnişindaşıma xidməti ilə məşğul olan "Xoşqədəmli" MMC-nin direktoru Eyvaz Abbasov deyib. O vurğulayıb ki, sərnişindaşıma xidmətinin tarifləri ilə bağlı sonuncu qərar 2018-ci ilin avqust ayında, yəni, 5 il əvvəl qüvvəyə minib.** Həmin vaxtdan ötən illər ərzində ehtiyat hissələrinin idxal qiymətləri və ümumilikdə təmir xərcləri artıb. Bundan başqa, avtomobillər üçün yağ və digər zəruri materialların, həmçinin yanacağın qiyməti artması da sərnişindaşıma xidmətinin maya dəyərinə ciddi təsir göstərib. Sərnişindaşıma tarifinin aşağı olması avtobus parkının yenilənməsi üçün investisiya qoyuluşuna imkan verməyib.

Eyvaz Abbasov deyib ki, xidmətin keyfiyyətinin artırılması, avtobus parkının yenilənməsi, müasir və dayanıqlı daşımanın həyata keçirilməsi üçün tariflərə yenidən baxılması üçün Tarif Şurasına müraciət edilmişdi. "Tariflərin yenidən müəyyən olunması sərnişindaşıma fəaliyyəti göstərən şirkət kimi bizə həm maliyyə vəziyyətimizi yaxşılaşdırmaq imkanı verəcək, həm də vətəndaşa daha yüksək və keyfiyyətli xidmət göstərilməsinə gətirib çıxaracaq", - deyə o bildirib.

✍ **Sevinc**

## Parlament

***Rəqabət Məcəlləsinin layihəsi uzun illərdən sonra Milli Məclisdə müzakirəyə çıxarılacaq. Belə ki, məsələ parlamentin 2023-cü il üzrə yaz sessiyasının qanunvericilik işləri planına daxil edilib. Layihə əvvəlcə sessiya ərzində Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılacaq.***



# Rəqabət Məcəlləsi müzakirəyə çıxarılır

Qeyd edək ki, Rəqabət Məcəlləsi 2006-cı ildə hazırlanaraq Milli Məclisə təqdim edilib. Qanun layihəsi iki oxunuşdan keçsə də, üçüncü oxunuşda müzakirəyə çıxarılmayıb. Bəs görəsən, düyünə çevrilmiş Rəqabət Məcəlləsi 2023 ildə qəbul emək mümkün olacaqmı?

■ **Məsələni qəzetimizə şərh edən iqtisadçı alim Əli Əlirzayev deyib ki, bu məsələdə millət vəkilləri iradə nümayiş etdirməlidirlər:**

"Bu sənədin qəbulu iqtisadiyyatın inkişafı üçün olduqca vacibdir. Amma uzun illərdir ki, sənədin qəbulunda maraqlı olmayan qüvvələr bu işi düyünə çeviriblər. Biz bunu inkar edə bilmərik. Çünki bəzi oliqarx məmurlar bu Məcəllənin qəbulunun əleyhinədir. Ona görə də sənədin 2023-cü ildə qəbul olunacağı ilə bağlı konkret fikir bildirmək çətindir. Bu məsələdə millət vəkilləri də iradə və həmrəylik nümayiş etdirməlidirlər. Əks təqdirdə sənədin qəbulu bu il də yubana bilər".

> *Bu məsələdə millət vəkilləri də iradə və həmrəylik nümayiş etdirməlidirlər*

İqtisadçı alim qeyd edib ki, Azərbaycan bazar iqtisadiyyatı şəraitində yaşayır: "Belə olan şəraitdə rəqabət qabiliyyəti əsas meyar və hədəfdir. Belə bir qanunun qəbul edilməsi ölkə iqtisadiyyatının gələcək inkişafı yolunda əsas təkanverici qüvvə rolunda çıxış edəcək. Rəqabət Məcəlləsi rəqabət qabiliyyətli iqtisadiyyat yolunda ali məqsəddir. İqtisadi artımın davamlı inkişafını təmin etmək istəyiriksə, uzun müddətli rəqabət qabiliyyətli müəssisə, məhsul yaratmalıyıq. Yəni məhsulun, fəaliyyətin rəqabət qabiliyyəti təmin edilməli, sahibkarlar öz məhsullarını satmaq üçün bazar tapmalıdırlar. Bu yolda da onlara Rəqabət Məcəlləsi yardımçı olur. Ona görə də rəqabət qabiliyyəti üzrə prinsiplərin olması mütləq lazımdır. Onun üçün də müasir dövrün tələblərinə cavab verən innovasiyalı, yeni keyfiyyətli məhsul istehsal edilməli, sahibkar üçün stimul yaradılmalı, bazarlar genişləndirilməlidir. Həmçinin burada kadr potensialı da mühüm rol oynayır. Rəqabət mühitində tələblə təklif amili də mühüm əhəmiyyət kəsb edir.

Digər məhsulları istehsal edən müəssisələrlə rəqabətə girmək lazımdır. Bu bazar iqtisadiyyatı şəraitində onun diktəsilə edilən bir yarışdır. Rəqabət qabiliyyətinin olması müəssisələrin uzunmüddətli davamlı inkişafına da stimul yaradır, eyni zamanda onun gəlirləri artır. Gəlirlərin artırılması ilə müəssisə yeni-yeni axtarışlara meyl edir, müasir texnologiyalar tətbiq edir, tədqiqatlar aparır. Ona görə də sahibkarlığın inkişafında əsas amil olaraq məhz rəqabət qabiliyyəti çıxış edir.

Təbii ki, rəqabət qabiliyyətinin təmin edilməsi üçün hüquqi baza olmalıdır. Bu baza rolunda da məhz Rəqabət Məcəlləsi çıxış edir. Onun əsaslarını, hüquqi və qanunvericilik bazasını yaratmaq, təşkilatı-iqtisadi strukturları təkmilləşdirmək, iqtisadiyyatın inkişafını təmin etmək üçün belə bir Məcəllənin qəbulu nəinki mümkün, hətta vacibdir. Əslində Rəqabət Məcəlləsi çoxdan hazırlanmalı idi, biz bu məsələdə xeyli yubanmışıq".

✍ **Sevinc**

# Tranzit nəqliyyat vasitələri yol vergisi ödəyəcək




**Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən şəxslər yol vergisi ödəyici, həmin şəxslərə məxsus nəqliyyat vasitələri isə yol vergisinin obyekti hesab olunacaq.**

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb. Beləliklə, həmin nəqliyyat vasitələri üçün yol vergisi aşağıdakı kimi olacaq:

Bununla yanaşı, təhlükəli yüklərin daşınmasına görə yol vergisinə tətbiq olunan artımlar, o cümlədən nəqliyyat vasitələrinin yüklə birlikdə ümumi çəkisi 38 tondan 41 tonadək olduqda Azərbaycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün verginin 0,15 ABŞ dolları artırılmasına dair müddəa da ləğv olunur.

Qeyd edilib ki, Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı olan xarici dövlətlərin avtonəqliyyat vasitələrinə tətbiq olunan yol vergisinin dərəcələri çoxpilləli olduğundan yol vergisinin hesablanması, bəyan olunan malların tərkibindəki təhlükəli yüklərin müəyyən edilməsi və onun dərəcələrinin təyin edilməsi xeyli vaxt itkisinə səbəb olur ki, bu da dövlət sərhəd buraxılış məntəqəsinin ərazisindən keçmə vaxtına mənfi təsirini göstərir.

# Uşaqlarda ikinci tip diabet xəstəliyi artmaqdadır

**"Son illərdə uşaqlarda ikinci tip diabet xəstəliyi artmaqdadır". Bunu Səhiyyə Nazirliyinin mütəxəsis-eksperti uşaq endokrinoloqu Azad Əkbərzadə bildirib. Uşaqlarda diabetin ilkin əlamətlərini açıqlayan həkim bildirib ki, birinci tip diabetdə ifrat sidiyə getmə, hədsiz su içmə, çox qida qəbulu və buna baxmayaraq halsızlıq, yorğunluq əlamətləri olur:**

"Sonrakı mərhələdə ağızdan pis qoxunun gəlməsi kimi əlamətlər kəskinləşir. İkinci tip diabetdə əlamətlər gec ortaya çıxır. Bu uşaqlar hədsiz çəkidən əziyyət çəkirlər. Əsəbilik, halsızlıq, ağızqurusu kimi əlamətlər də zamanla özünü göstərir". Həkim qeyd edib ki, I tip diabet daha çox 5-7 yaş aralığında olan, həmçinin yeni doğulmuş uşaqlarda daha çox rast gəlinir. İkinci tip diabet isə 10 yaşdan sonra özünü göstərə bilir.



# 2 Fevral - Gənclər Günüdür

***Bu gün Azərbaycanda Gənclər Günüdür. Belə ki, 1997-ci ildən 2 Fevral tarixi ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. 2 Feval tarixinin Gənclər Günü kimi elan olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsas qoyulub. 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradılıb. Ulu Öndərin prezidentliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzrlərində hiss ediblər.***



**Azərbaycan əhalisinin 2,3 milyon nəfəri gənclərdən ibarətdir**

## Cəmiyyət

Gənclərimiz Heydər Əliyevin onlara ən böyük hədiyyəsi olan bu günün təsis edilməsinin 26 illiyini qalib ölkənin məğrur və qürurlu vətəndaşları kimi böyük ruh yüksəkliyi ilə qeyd edirlər.

Yeri gəlmişkən, ölkə əhalisinin 2,3 milyon nəfəri və ya 22,1 faizi gənclərdən ibarətdir. Dövlət Statistika Komitəsi tərəfindən hazırlanan "Azərbaycan gəncləri" statistik məcmuəsində bildirilib ki, gənclərin 50,5 faizi şəhər yerlərində, 49,5 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 47,5 faizini qadınlar təşkil edir.

Qeyd edək ki, Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Ötən ildə isə yeni "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın icrasına başlanılıb. Bu proqram çərçivəsində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərdək Azərbaycan vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində dövlət hesabına təhsili təmin ediləcək.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda 43 Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurla çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

Bu gün tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Bu illər ərzində Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Sevindirici haldır ki, gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak edirlər.

Təsadüfi deyil ki, artıq 50 gündən çoxdur Laçın-Xankəndi yolunda keçirilən dinc ekoloji aksiya iştirakçılarının böyük əksəriyyəti də gənclərdir. Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində toplaşan gənclərin tələbi Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarı və ekoloji cinayətlərin dərhal dayandırılmasıdır.

✍ *Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin VİDASI



İrandakı Azərbaycan Səfirliyinə terror nəticəsində şəhid olan baş leytenant Orxan Əsgərovla vida mərasimi keçirilib. Yas mərasimi Yeni Yasamal qəsəbəsində, mərhumun evinin həyətində təşkil olunub. Mərasimdə şəhidin yaxınları, həmkarları, rəsmilər, ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdən sonra mərhum II Şəhidlər xiyabanında dəfn olunub.

### Həftənin TƏYİNATI



Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Həsən Həsənli nazir müavini təyin edilib. Azərbaycan Respublikası Prezidenti bununla bağlı müvafiq sərəncam imzalayıb. Qeyd edək ki, Həsən Həsənli 1991-ci ildə Naxçıvan şəhərində anadan olub. O, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2009-2013-cü illərdə Böyük Britaniyanın Bristol və Kembric universitetlərində ictimai siyasət və siyasi elmlər ixtisası üzrə bakalavriat və magistratura təhsili alıb. Həsən Həsənli Elm və Təhsil Nazirliyində mütəxəssis, sektor müdiri, nazir müşaviri, Aparat rəhbərinin müavini və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri vəzifələrində çalışıb. 2021-ci ilin iyun ayından 2023-cü ilin 30 yanvar tarixinədək Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri vəzifəsində çalışıb.

### Həftənin XƏSTƏSİ



Gürcüstanın sabiq Prezidenti Mixail Saakaşvili reanimasiyaya yerləşdirilib. Bu barədə məlumatı "Vahid Milli Hərəkat" partiyasının üzvü Georgi Çiladze açıqlayıb.

Onun sözlərinə görə, Saakaşvilinin vəziyyəti narahatlıq doğurur: "Onun vəziyyəti kritikdir. Həyati vacib göstəriciləri qorumaq üçün onun reanimasiya bölməsində olması vacibdir", - deyə Çiladze qeyd edib.

### Həftənin PAYLAŞIMI


TRACTOR FC
@TractorOfficial
Qardaş acısın sadəcə qar
Tehran'da Azərbaycan sə
şiddət ilə məhküm edirik.
Terora Son
ÖS 12:18 · 27 Oca 2023 · 3.530

Azərbaycanın İrandakı Səfirliyinə edilən terror hücumu ilə bağlı "Traktor" klubu paylaşım edib. Hafta.az xəbər verir ki, paylaşımda terror aktı qınanılıb: "Qardaş acısını qardaş çəkər. Tehrandakı Azərbaycan səfirliyinə olan hücumu qınayırıq. Terrora son!". Qeyd edək ki, hücum nəticəsində səfirliyimizin bir əməkdaşı həlak olub, ikisi isə yaralanıb.

### Həftənin HƏDƏSİ



Böyük Britaniyanın keçmiş Baş naziri Boris Conson Rusiyanın Ukraynaya qarşı hərbi əməliyyata başlamazdan öncə Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı onun tərəfindən raket hücumu ilə hədələndiyini açıqlayıb. Conson Putinə xəbərdarlıq edib ki, Ukraynaya müdaxilə Qərbin sanksiyalarına və Rusiya sərhədlərində daha çox NATO əsgərinin yerləşdirilməsinə səbəb olacaq. B.Consonun sözlərinə görə, Putin Böyük Britaniyanın çağırışına mənfi cavab verib: "O məni hədələyərək və şən bir şəkildə dedi: "Boris, səni incitmək istəmirəm, ancaq bu, bir raketlə bir dəqiqə çəkəcək"".

### Həftənin YARDIMI



Rusiyalı biznesmen Roman Abramoviç "Çelsi" futbol klubunun satışından əldə etdiyi vəsaitin bir hissəsini Ukraynaya göndərəcək. Bu haqda "The Telegraph" nəşri yazıb. Nəşr bu məbləğin 2,3 milyard funt sterlinq olduğunu açıqlayıb. Abramoviç hələ İngiltərənin sanksiyalar siyahısına daxil edilməmişdən əvvəl "Çelsi"ni satdığını açıqlamışdı. 2022-ci ildə Abramoviç bu vəsaiti "zərərçəkənlərə kömək etmək üçün" Ukraynaya köçürəcəyini vəd etmişdi.

✍ *Azad Əliyev*




## 5G Azərbaycanın ən sürətli şəbəkəsinin təqdimatında! ®

**Bakcell 5G texnologiyasını istifadəyə verib. Hazırda sınaq rejimində fəaliyyət göstərən 5G şəbəkəsi Bakının müxtəlif ərazilərində - Fəvvarələr Meydanında, Xaqani bağında (Molokan bağı) və "Dəniz Mall" ərazisində mövcuddur.**

Azərbaycanın ən sürətli mobil şəbəkəsinin təqdimatında 5G texnologiyasını Huawei, Xiaomi, OnePlus, Poco və Vivo smartfonlarının sahibləri istifadə edə bilər.

Bakcell 5G texnologiyadan istifadə edən abunəçilərinə 5GB balans da hədiyyə edir. Yuxarıda adları çəkilən mobil cihaz sahibləri 5G-nin mövcud olduğu ərazilərdə olarkən telefonda *501*1# kodunu yığmalıdırlar. Əgər abunəçinin cihazı 5G texnologiyasını dəstəkləyirsə, onun nömrəsinin balansına 5 GB həcmində 5G trafiki hədiyyə olunacaq. Bu balans 1 saat ərzində 5G sınaqları keçirilən ərazilərdə istifadə edilə bilər. Ətraflı məlumatı 5g.bakcell.com səhifəsindən əldə etmək mümkündür. Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınır.

## Avroviziya 2023" üçün namizədin artıq seçildiyi iddiası əsassızdır

**İctimai Televiziya (İTV) "Avroviziya 2023" mahnı müsabiqəsi ilə bağlı yayılan şayiələrə münasibət bildirib. Televiziyadan APA-nın sorğusuna cavab olaraq nümayəndə heyətinin mətbuat katibi İlahə Dadaşova bildirib ki, yayılan söhbətlər finala vəsiqə qazanmış iştirakçılara qarşı hörmətsizlikdir:**

"Əvvəla qeyd etmək istərdim ki, bu iddialara cavab verməyimizin əsas məqsədi final mərhələsinə seçilən ifaçılara qarşı hörmətsizliyə biganə qalmamaqdır. Seçilmiş 5 iştirakçı təqdim etdiyi musiqi və ifası sayəsində bu mərhələyə çatıb.

Tam yanlış olaraq artıq qalibin seçildiyi iddia edilsə də, bildiririk ki, final mərhələsi məhz bu günlərdə keçirilir və bu prosesin gedişatı barədə məlumatların tezliklə ictimaiyyətə açıqlanması nəzərdə tutulur. Seçim prosesinə mənfi təsir etməyəcək bütün məlumatları yaxın günlərdə paylaşacaq, finalçıların adlarını açıqlayacağıq. Bir az səbirli olmağınızı xahiş edirəm". "Avroviziya 2023" Azərbaycan nümayəndə heyətinin musiqi prodüseri Eldar Qasımov isə builki Avroviziya təmsilçimizin hələ bəlli olmadığını qeyd edib: "Bu qərar verilməzdən əvvəl yerli və beynəlxalq musiqi aləmindən təcrübəli insanların rəyləri öyrəniləcək. Sağlam rəqabəti təmin etmək üçün bütün finalçıların mahnılarını bir neçə gün əvvəl eyni studiyada, eyni şəraitdə yazdırmışıq".




Nümayəndə heyətinin rəhbəri Vasif Məmmədovun sözlərinə görə, komanda üzvlərinin müsabiqəyə müraciət etmiş ifaçı və bəstəkarlarla tanışlığının seçim prosesinə heç bir təsiri yoxdur: "Eldar Qasımov və Ömər Əbdülkərimov illərdir musiqi sahəsində çalışırlar və onların bu sahədə həm dostları, həm yaxın həmkarları var. Bu, təbii bir haldır. Amma qeyd etməliyəm ki, Avroviziya heyətinin üzvlərindən heç biri müsabiqədə iştirak edən hər hansı ifaçının meneceri deyil və olmayıb. Böhtan xarakterli məlumatları yayanlara isə vaxtlarını və enerjilərini yaradıcılığa yönəldib, şöhrət qazanmağı arzu edirəm".

Qeyd edək ki, bu günlərdə Azərbaycanı "Avroviziya"da təmsil etmək üçün müraciət edən namizədlərdən biri Rauf Kingsley seçim turlarından narazı olması barədə açıqlama verib. O, Azərbaycan deleqasiya nümayəndələrini göndərilən heç bir sənətçinin mahnılarını dəyərləndirilməməkdə ittiham edib. İfaçının sözlərinə görə, artıq "Mamagama" adlı qrup qalib olaraq seçilib. Rauf Kingsley seçimin yenidən aparılmasını tələb edib: "Shortlist"in yenidən yaradılmasını şəffaf və açıq şəkildə ən layiqli sənətçinin və mahnının, ədalətli seçilməyini tələb edirəm".

## GÜNÜN FOTOSU



**Tülkü Britaniya baş nazirinin qərargahı önündə**

## Macarıstanla əməkdaşlıqda yeni mərhələ

**Tahir Rzayev**, Milli Məclisin deputatı

Azərbaycan Macarıstan münasibətləri dostluğa, qardaşlığa, dövlətlərin və xalqların firavanlığına, inkişafına əsaslanır.

▸▸ Səh. 4

## STATİSTİKA



■ **Keçən il 110-u oğlan, 105-i qız olmaqla 215 uşaq övladlığa götürülüb. Onlardan 136-sı 3 yaşadək, 67-si 4-11 yaş, 12-i 12-18 yaş aralığında olanlardır.**

Son bir ildə həmçinin sosial xidmət müəssisələrindən 120 uşaq öz bioloji ailəsinə reinteqrasiya edilib. Onlardan 53-ü qız, 67-i oğlandır. Övladlığa götürülən uşaqların ailələrdə fiziki-mənəvi inkişafının təmin olunmasına nəzarət edilməsi üçün uşaqlar 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə ildə bir dəfə monitorinqlər həyata keçirilir.



▸▸ Səh. 6

## İran Azərbaycanla sonsuzadək düşmən qalacaq